# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



4

SƏS
№ 049 (7217)
18 mart 2025-ci il.
Qiymәti 60 qәpik

# Dünya üçün nümunə olan SİYASİ USTALIQ!



XII Qlobal Bakı Forumu 15 mart tarixində başa çatsa da, hələ çox müzakirələrə səbəb olacaq və ölkə rəhbərimizin fikirləri, eləcə də öz müsahibəsində səsləndirdikləri qətiyyən unudulmayacaq.

3

# Avropanın silahlanma arxitekturası



5

## Təbiəti oyadan İLAXIR ÇƏRŞƏNBƏ




4

DİQQƏT: "ASAN xidmət" və "ASAN kommunal" bu günlərdə işləməyəcək



16

## Tiroid və ondan qurtulmağın YOLLARI



9

## Sülh üçün 3 şərt



12

## "Amerikanın səsi"nin bağlanması ilə Əli Kərimlinin də "səsi" batdı



14

# “Azərbaycan bu əməkdaşlığa öz töhfəsini verməyə hazırdır”



**Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavinini qəbul edib**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib. Söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin Müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulandı.***

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin əhəmiyyətini qeyd etdi. Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırdı və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını dedi.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd etdi və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğuladı. Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıldı.

## Xarici media XII Qlobal Bakı Forumunda Prezident İlham Əliyevin çıxışına geniş yer ayırıb



NOI +20°C $ 17.86 € 19.40

В Азербайджане проходит XII Глобальный Бакинский форум

13 мар. 14:00 В Мире 644 0

**В Баку под патронатом Президента Азербайджана Ильхама Алиева проходит XII Глобальный Бакинский форум на тему «Переосмысление миропорядка: Превращение вызовов в возможности», организованный Международным центром Низами Гянджеви.**



NOI +20°C $ 17.86 € 19.40

Ильхам Алиев: "Азербайджан стремится к устойчивому миру на Южном Кавказе"

13 мар. 19:45 В Мире 58 0

**В столице Азербайджана стартовал XII Глобальный Бакинский форум. В ходе церемонии с приветственной речью выступил президент Азербайджана Ильхам Алиев.**

Moldovanın “noi.md” xəbər portalı “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumunun rəsmi açılış mərasiminə dair məqalələr dərc edib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Forumda söylədiyi fikirlərə geniş yer verilib. Prezidentin nitqində Azərbaycanın beynəlxalq mövqelərinin konturları, üzləşdiyi vəzifələr və əldə etdiyi uğurlar göstərilib. Azərbaycan dövlətinin başçısı Bakı Forumunun aktual qlobal problemlərin müzakirəsi üçün aparıcı platformalardan birinə çevrildiyini vurğulayıb. Bu kontekstdə Prezident İlham Əliyev xatırladıb ki, ötən il Bakıda keçirilən COP29 iqlim konfransı ekspertlər tərəfindən “Bakı sıçrayışı” adlandırılıb və bu, Azərbaycanın qlobal siyasətdə artan rolundan xəbər verir.

Məqalədə, həmçinin Prezident İlham Əliyevin Azərbaycanın yaşadığı işğal illərini və Ermənistan tərəfinin verdiyi dağıntıları haqqında fikirləri də yer alıb. Dövlətimizin başçısının sitatına istinadla Azərbaycanın güc və qətiyyət nümayiş etdirərək öz ərazi bütövlüyünü bərpa etdiyini vurğulanıb. Azərbaycanın öz hərbi potensialını fəal şəkildə inkişaf etdirdiyini və son 20 ildə işğal olunmuş əraziləri azad edən qüdrətli ordu yaratdığı qeyd edilib.

Eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycanın zərərinə erməni diasporunu dəstəkləyən bəzi Qərb siyasətçilərini tənqid edən fikirləri də məqalədə xüsusi yer tutub. Azərbaycan Prezidentinə istinadla vurğulanıb ki, Robert Menendez, Adam Şif, Frank Pallon və Nensi Pelosin erməni diasporunun maliyyə resurslarından Azərbaycana hücum və nüfuzdan salmaq üçün istifadə ediblər. Həmçinin ABŞ-ın keçmiş dövlət katibi Antoni Blinken onilliklər ərzində əməkdaşlığa, o cümlədən Bakının İraq və Əfqanıstandakı hərbi missiyalarda iştirakına baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini faktiki olaraq pozub. Azərbaycan Prezidenti Avropa İttifaqını da tənqid edərək, Brüsseli Ermənistanın “yeni böyük qardaşı” adlandırıb. Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan-Azərbaycan sərhədində Avropanın monitorinq missiyası faktiki olaraq onun ölkəsinə qarşı kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Dövlətimizin başçısı Ermənistana verilən silahların Azərbaycana qarşı yönələ biləcəyindən də narahat olduğunu bildirib. Prezident İlham Əliyev qeyd edib ki, keçmişdə baş vermiş faciəli hadisələrə baxmayaraq, ölkə gələcəyə baxır və Cənubi Qafqazda davamlı sülhə nail olmağa çalışır.

# Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev martın 17-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əlaqələr, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Valentina Matviyenko Bakı-Qroznı istiqaməti üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığını çatdıraraq, bu məsələnin Rusiyanın istintaq orqanları tərəfindən araşdırıldığını və ona obyektiv qiymət veriləcəyini bildirdi. Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında parlamentlərarası təmasların davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federal Məclisi Federasiya Şurasının sədri ilə görüşüb



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 16-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Valentina Matviyenkonu salamlayaraq, onun ölkəmizə səfərinin ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri qəbula və qonaqpərvərliyə görə Birinci vitse-prezidentə təşəkkürünü bildirdi. Qonaq ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

**XII Qlobal Bakı Forumu 15 mart tarixində başa çatsa da, hələ çox müzakirələrə səbəb olacaq və ölkə rəhbərimizin fikirləri, eləcə də öz müsahibəsində səsləndirdikləri qətiyyən unudulmayacaq. Onsuz da yüzlərlə iştirakçı elə həmin tədbirdə dünya düzəninin necə dəyişdiyini və bundan sonra nə etmək lazım olduğunu müzakirə ediblər. Bununla belə, diqqətə çatdıraq ki, məhz ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibədə ünvanladığı mesajlar və səsləndirdiyi fikirlərin də elə dünya düzəninin qaydasına düşməsi üçün bir yol xəritəsi olması fonunda hələ çox müzakirələr gözlənilir. Bütün bunların fonunda etiraf etmək lazımdır ki, dövlət başçımızın öz müsahibəsində bildirdikləri təkcə XII Qlobal Bakı Forumu iştirakçıları üçün yox, ümumilikdə dünya üçün nümunə olan siyasi ustalıqdır.**



# Dünya üçün nümunə olan SİYASİ USTALIQ!

### Dövlətimizin mövqeyi, geosiyasi müstəvidə rolu ölkə rəhbərimizin siyasi ustalığı qələbəmizin davamlı olacağından xəbər verir

Dünyanın müxtəlif ölkələrindən 400-ə yaxın aparıcı siyasətçini, o cümlədən 50-dən artıq hazırkı və keçmiş dövlət və hökumət başçılarını, habelə Nobel mükafatı laureatlarını, BMT-nin nümayəndələrini, elmi və ekspert ictimaiyyətini bir araya gətirən XII Qlobal Bakı Forumunun əhəmiyyətli dərəcədə qaynar keçməsi gözlənilən idi. Elə dünya düzəni ilə bağlı ölkə rəhbərimizin ünvanladığı mesajlar da, Prezidentimizin öz müsahibəsi zamanı dünya düzənini qaydaya salmaq barədə səsləndirdiyi yol xəritəsi də gözlənilən hesab olunurdu, çünki dünya ictimaiyyəti artıq dövlətimizin başçısının ənənəvi şəkildə layiqli, yerində olan mesajlarına, siyasi ustalığına alışqandır və bütün dünya üçün nümunə sayılan qalibiyyət yenə də, bu dəfə də tam yerinə düşdü.

Ölkəmizin qlobal miqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etməsi birinci dəfə deyildi. Heç sonuncu dəfə də ola bilməz. Belə tədbirlərin yenə də Azərbaycanda keçiriləcəyi əlbəttə ki, yenə də gözləniləndir. Çünki əvvəla, Azərbaycan beynəlxalq miqyaslı tədbirləyə ev sahibliyini hər dəfə layiqincə edib. Digər tərəfdən də, ölkəmizin beynəlxalq miqyasda nüfuzu günü-gündən elə bir dinamika ilə artmaqdadır ki, bunun fonunda başqa gözlənti ola da bilməz və rəsmi Bakının mövqeyi, geosiyasi müstəvidə rolu hələ bundan sonra daha böyük tədbirlərin ölkəmizdə təşkil ediləcəyini söyləməyə əsas verir. Azərbaycan nə hansısa cırtdan dövlətin tayı deyil, nə də Ermənistan kimi hansısa işğalçı dövlətlə, dünyada zərrə qədər də nüfuzu və rolu olmayan, hesaba belə alınmayan ölkə ilə müqaisə də edilə bilməz. Əks halda, bütün dünya ölkələrinin liderləri Azərbaycanda toplaşmazdı.

Hər dəfə beynəlxalq tədbirlərə ev sahibliyi etdikdən sonra Azərbaycanın nüfuzunun daha da artdığı bəllidir. Dünya ölkələrinin liderləri, müxtəlif dövlətlərin hökumət rəhbərləri ölkəmizdə olduğu zaman Azərbaycanın necə bir demokratik, suveren dövlət olduğunu və qüdrətini görmüş olurlar. Əleyhimizdə olanlar belə qlobal miqyaslı tədbirlərə ev sahibliyi edən Azərbaycanın necə bir ölkə olduğunu gördükləri zaman öz hesablarını da yaxşıca gedirlər. Başa da düşürlər ki, hərhansı cılız təbliğat, hərhansı ucuz qarayaxma kompaniyası Azərbaycan kimi bir qüdrətli ölkə üçün qətiyyən təsirli ola bilməz. Eyni zamanda, ölkə rəhbərimizin hər dəfə çıxışlarını, ifadə etdiyi fikirləri eşidənlər yaxşı başa düşürlər ki, Azərbaycan Prezidenti həmişə olduğu kimi, yenə də qətiyyətlidir və böyük siyasi iradəyə sahibdir. Dərk edirlər ki, ölkə rəhbərimiz hər zaman olduğu kimi, yenə də öz haqlı mövqeyindən dönməzdir və hansısa quvvə başqa bir gözləntini nə gözləyə, nə də buna heç ümid də edə bilməz. Deməli, bizim bundan sonra da diplomatik qələbələrə, uğurlara, irəliləyişlərə inanmağımız, ümid etməyimz heç də əsassız deyil. Çünki dövlətimizin mövqeyi, geosiyasi müstəvidə rolu ölkə rəhbərimizin siyasi ustalığı qələbəmizin davamlı olmasından xəbər verir.

### Ölkə rəhbərimizin diplomatik qələbəsi siyasi ustalıq olaraq qəbul edilir və bütün dünya üçün də nümunə sayılır

Tədbirə ev sahibliyi edən və tədbirdsə yüksək səviyyədə təmsil olunan Azərbaycanın dövlət başçısının öz güclü tərəflərinə və milli maraqların prioritetinə arxalandığını sərt və birmənalı şəkildə bəyan edən ətraflı müsahibəsinin "Euronews" televiziyasında yayımlanması əlbəttə ki, diqqətdən, bütün dünyanın diqqətindən yayına bilməzdi və yayınmadı da. "Bizim yanaşmamız ondan ibarətdir ki, biz dünya nizamını qiymətləndirməkdə tamamilə haqlı idik. Milli maraqlarımızdan söhbət gedəndə heç kimə, heç bir quruma arxalanmadıq. İstər Rusiya ilə Ukrayna arasındakı müharibə, istər Yaxın Şərqdəki hadisələr, istərsə də Afrikadakı gərginlik olsun, hər bir ölkə başa düşməlidir ki, öz taleyinin sahibidir", deyə bəyan edən cənab Prezident İlham Əliyev bir daha diqqətə çatdırdı ki, ölkəmizdə yürüdülən siyasətin, Azərbaycanın tutduğu yolun doğru, düşünülmüş, məqsədyönlü olduğuna elə əvvəldən əmin olub.

Ölkə rəhbərimz öz müsahibəsində həmçinin onu da vurğulayıb ki, bizim tanıdığımız dünya nizamı artıq mövcud deyil və hazırda beynəlxalq ictimaiyyətin istifadə edəcəyi qarşılıqlı əlaqə konfiqurasiyası heç kimə məlum da deyil. "Hər bir ölkə hər hansı yardıma, hətta beynəlxalq hüquqa güvənməkdənsə, öz daxili işlərinə və daxili imkanlarına daha çox diqqət yetirməlidir. Beynəlxalq hüququn seçmə tətbiqinin qurbanına çevrilmiş Azərbaycan öz gələcəyini daxili imkanlarından istifadə etməklə qurmaqda böyük təcrübəyə malikdir", deyərək, fikirlərini əsaslandıran cənab İlham Əliyev bir çox məqamlara da siyasi ustalıqla bütün dünyanın diqqətini cəlb edib.

İndi bütün dünya başa düşür və açıq-aşkar şəkildə etiraf da edir ki, paytaxtımızda keçirlən və ölkəmizin ev sahibliyi etdiyi Forumun layiqincə təşkil olunması, həmin tədbirdə və öz müsahibəsində ölkə rəhbərimizin, cənab İlham Əliyevin söylədikləri, bildirdiyi fikirlər, ünvanladığı mesajlar, həmçinin ortaya qoyduğu yol xəritəsi əsl diplomatik qələbə sayılır. Bəli, yenə də ölkə rəhbərimiz özünün siyasi ustalığı ilə diplomatik qələbəyə imza atdı. Artıq Azərbaycan Prezidentinin ənənə halına çevrilmiş diplomatik qələbəsi siyasi ustalıq olaraq qəbul edilir. Özü də, bütün dünya üçün nümunə də hesab olunur.

### Beynəlxalq hüquqa, qanunlara və xalqa arxalanaraq milli maraqların üstün tutulması ən böyük siyasi ustalıqdır

Dünyanın ən böyük, ən güclü dövlətlərindən biri, bəlkə də birincisi olan ABŞ kimi bir dövlətin Azərbaycana maraq göstərməsi, ölkəmizin mövqeyi ilə hesablaşması heç də təsadüfi deyil. Belə bir hal ancaq Azərbaycanın qüdrəti, nüfuzu, ölkə rəhbərimizin siyasi iradəsi, siyasi ustalığı sayəsində reallığa çevrilib. İndi amerikalılar yaxşı bilirlər ki, əvvəla, Azərbaycan regionun aparıcı dövlətidir. Hətta bütövlükdə Qərb yaxşı bilir ki, Azərbaycan regionun lokomotividir. Amerika lideri Trampın Azərbaycan Prezidentinin fikirlərinə böyük hörmətlə yanaşması da əbəs yerə deyil, tamamilə məntiqidir. Cənab İlham Əliyevin fikirləri Donald Tramp üçün çox önəmlidir, çünki Ağ Ev rəhbəri bilir ki, Qafqazın ən güclü, ən qüdrətli dövlətinin başçısı güclü siyasi iradəyə sahib olmaqla yanaşı, həm də reallığa, həqiqətə, qanunlara, beynəlxalq hüquqa və bunlarla yanaşı, həm də həmişə olduğu kimi, yenə də öz xalqına arxalanır.

ABŞ kimi bir ölkənin rəhbəri üçün rəsmi Bakının hansı mövqedə olması indi olduqca maraqlıdır. Ümumiyyətlə, dünyada baş verən hadisələrə Azərbaycanın, Azərbaycan Prezidentinin ən doğru şəkildə yanaşması, ən doğru və real münasibət bildirməsi qətiyyən diqqətdən yayınan olmayıb. İndi məhz bunun fonunda da bu və ya digər qlobal problemlərə, məsələlərə ölkəmizin hansı şəkildə baxması ilə də Amerika liderinin maraqlanması ölkə rəhbərimizin siyasi ustalığı sayəsindədir. Dövlət başçızım "Euronews" telekanalına müsahibəsində ABŞ-la dialoq qurmağa hazır olduğunu təsdiqləməsi də diqqətdən yayınan deyil və bunu ABŞ prezidenti Donald Tramp da qətiyyən nəzərdən qaçıra bilməz. "Biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığın bərpasına çox nikbin yanaşırıq", deyə Azərbaycan lideri bildirib və bu o deməkdir ki, dövlət başçımız Bayden kimi əleyhimizdə olan, milli maraqlarımıza qarşı çıxan biri ilə deyil, məhz bizim ölkəmizlə münasibətlərə sağlam şəkildə yanaşan liderlə münasibətlərə önəm verir. Elə bu fakt özü də siyasi iradənin olduğunun təsdiqidir. Artıq belə bir siyasi iradə bütün dünya ictimaiyyəti üçün heç də sirr deyil. Məhz bu baxımdan da cəsarətlə deyə bilərik ki, ölkə rəhbərimizin milli maraqlarımızı daha üstün tutması,bu istiqamətdə də qətiyyəti, bunun "Euronews" kimi televiziyaya müsahibədə aydın şəkildə ifadəsi bütün dünya üçün nümunə olaraq siyasi ustalıqdır...

*İnam Hacıyev*

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib








***Martın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2024-cü il üzrə maliyyə hesabatı təqdim olunub. Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mükəmməl səviyyədə, bütün əhəmiyyətli aspektlər baxımından mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb. Sonra 2024-cü il üzrə maliyyə hesabatı müzakirə olunaraq İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib. Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.***

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bütün ərazisində tam suverenliyini təmin edərək növbəti inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanın 2024-cü ildə mühüm uğurlara imza atdığını və yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda duran milli məqsədlərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü söyləyib və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetiriləcəyinə əmin olduğunu bildirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin "Konstitusiya və Suverenlik İli"ndə də ardıcıl nailiyyətlərə imza atacağına inamını ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

# Təbiəti oyadan İLAXIR ÇƏRŞƏNBƏ

***Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirən Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Novruz fəlsəfəsi cəmiyyətdaxili münasibətləri tənzimləyən, insanlar arasında səmimiyyəti, dialoqu önə çəkən yüksək dəyərləri ehtiva edir.***




Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadır. Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş su, od, yel və torpaq çərşənbələri qeyd olunurdu. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Novruz bayramı təbiətlə bağlı su, od, torpaq, yel ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Bu gün qeyd etdiyimiz xalq arasında torpaq çərşənbəsi "İlaxır Çərşənbə", "Yer Çərşənbəsi", "Çərşənbə-Suri" kimi də adlanan sonuncu çərşənbəmizi qeyd edirik. Torpaq çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlişindən xəbər verir. Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Ataş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar. Axır Çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərlə daha çox zəngindir. Bu çərşənbədə əvvəlki çərşənbələrdə icra olunan bütün ayinlər kütləvi xalq şənlikləri ilə qeyd olunur. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlanır. Adamlar su üstünə çıxıb, su üstündən atdanaraq, dərdini, arzusunu suya danışıb, ondan imdad diləyirlər. Gün ərzində müxtəlif ayinlər keçirilir. Axır Çərşənbənin axşamı şənliklər daha da güclənir. İnsanlar tonqalın üstündən atılıb ağrı-acılarının oda tökülməsini arzu edirlər: "ağırlığım, qadam-balam tonqalda yansın". Burada məqsəd qışdan qalan dərdin, ağrı-acının adamın canından çıxması, insanın sağlam ruhla, saf qəlblə bayrama qovuşmaq istəyidir. Qulaq falına çıxmaq, qapılara kisə və papaq atmaq bu bayramın tərkib hissələridir. Küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid xüsusiyyətlərdəndir. Torpaq Çərşənbəsinə həm də Niyyət, Dilək Çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Həmin gün mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb, qapıya gələ bilər. Çərşənbə axşamı ailədə könül açan sözlər danışar, davadalaş etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşitməsin və evlərinə şən əhval-ruhiyyə ilə qayıtsın. Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta bir də baharın gəlişini əks etdirən Səmənidir. Novruz bayramı azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlər, mütərəqqi adət-ənənələr cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapır, bu sıradan da xalqın milli bayramı olan Novruz yüksək səviyyədə qeyd edilir. Baharın gəlişini müjdələyən, xalqımızın qədim tarixə malik milli bayramı olan Novruzun Son Çərşənbəsi - "İlaxır Çərşənbə" bu gün böyük ruh yüksəkliyi ilə qarşılanır.

## "VAXT VAR İDİ Kİ, BU BAYRAM BƏZİ SƏBƏBLƏRDƏN QADAĞAN OLUNMUŞDU"

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. "Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onillikləri biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir və öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan - zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan da onu bayram edir. O illər ki, bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar da, plov da var idi. Ən azı bu idi, hər kəs bunu edə bilirdi", - deyə Ulu Öndər qeyd edib.

## TONQALLAR ŞUŞADA, FÜZULİDƏ, ZƏNGİLANDA, LAÇINDA QALANIR

Ümummilli Liderimiz Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşına həkk olunmaqdadır. Bu gün sevindirici və qürurverici bir haldır ki, xalqımız Novruz bayramını işğaldan azad olunan ərazilərimizdə, əzəli torpaqlarımızda qeyd edirik. "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm", - deyə Ulu Öndər bildirmişdir. Artıq Ulu Öndər Heydər Əliyevin söylədiyi fikirlər bir həqiqətə çevrildi. Tonqallarımız əzəli torpaqlarımızda qalanır, el-obamız bayramı qaşılayır. Qəlblərdə sevgi, torpaqda ataş yaşanır. Bu gün sonuncu çərşənbəmizi Torpaq Çərşənbəsini qeyd edirik. İllərdir arzuladığımız və böyük məsləkimizə qovuşduğumuz torpaqlarımızın işğaldan azad olunduğu torpaqlarımızda çərşənbəmizi qeyd edirik. Novruz ənənələri yenidən 30 ilə yaxın həsrətində olduğumuz doğma torpaqlarımızda yaşanılır, tonqallar qalanır, od-alov aləmə yayılır. Torpağımıza isti nəfəs gəlib, torpaq həsrətlə gözlədiyi sevincinə qovuşub. Torpaqlarımız dərindən nəfəs alır. Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni günü Qələbə tarixini yaşamış xalqımız böyük sevinclə qarşılayır. Torpaq çərşənbəsi bütün Azərbaycana firavanlıq bəxş etsin! Oyanan torpaq bütün xalqımıza ruzi bərəkət gətirsin! İlaxır çərşənbəniz mübarək!

***Zümrüd BAYRAMOVA***



# Avropanın silahlanma arxitekturası

***Avropa İttifaqı silahlanma qərarında qəti olduğunu göstəriri. İttifaqa üzv olan ölkələr sosial proqramlara, yoxsulluğun azaldılmasına və ya iqlim fəaliyyətinə yönəldilməsi üçün nəzərdə tutulan vəsaitlərin xeyli hissəsinin silahlanmaya sərf etməsi sadə vətəndaşlarla yanaşı, iri vergi ödəyicilərini, hətta silah istehsalçılarını təəccübləndirib. Hər kəs nə baş veridyini düşünür, ABŞ-ın Avropanın təhlükəsizliyi ilə məşğul olmayacağı barədə qərarından sonra "Qoca Qitə"nin atacağı addımları səbirsizliklə gözləyir.***



Avropanın silah ixracatçıları olan BAE, Rheinmetall, Thales və Leonardo kimi şirkətlərin səhmləri son günlər sürətlə artıb. Bu şirkətləri artıq Ukraynanın taleyi maraqlandırmır. Onlar yalnız ən yüksək təklifin kimdən gələcəyinə əhəmiyyət verirlər. Aİ artıq Yaxın Şərq kimi regionlarda və daha da uzaqlarda münaqişələri alovlandırmamasını təmin etmək üçün tədbirlər görməlidir.

Donald Trampın Kiyevi "ədalətsiz sülhə" və "Rusiyaya təslim olmağa" məcbur etmək cəhdləri kontekstində Aİ-nin müdafiəsinin gücləndirilməsi Brüsseldə keçirilən fövqəladə sammitin əsas mövzusu olub. Aİ "Soyuq Müharibə"dən bəri Avropanın ən böyük təhlükəsizlik təşəbbüsü çərçivəsində əlavə hərbi maliyyə üçün yüz milyardlarla avro ayırmağa hazırlaşır. Brüsseldə keçirilən sammit öncədən taleyüklü adlandırılmışdı və Rusiya Federasiyasının hərəkətləri və ABŞ administrasiyasının Ukraynaya hərbi yardımı dayandırmaq qərarı ilə bağlı Avropadakı vəziyyət üç il əvvəlkindən daha təhlükəli idi.




Avropa Komissiyasının sədri Ursula von der Leyen deyib ki, Avropa heç birimizin görmədiyi miqyasda açıq təhlükə ilə üz-üzədir. Polşanın baş naziri Donald Tusk qeyd edib ki, hazırkı vəziyyətdə Avropa silahlanma yarışına girməli və qalib gəlməlidir. Onun sözlərinə görə, Aİ müdafiə sənayesi üçün maliyyənin artırılması təşəbbüsləri bu yolda ilk addımdır. "Euroaktiv" nəşrinin sammit ərəfəsində yazdığı kimi, Avropa İttifaqını parçalayan, ABŞ-la münasibətləri çətinləşdirən Ukraynaya dəstək məsələsinin ikinci plana salınması qərara alınıb. Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaja Kallasın Kiyevə 20 milyard dollarlıq yardım paketi təqdim etmək təklifi yekun bəyanat layihəsindən çıxarılıb. Bu təşəbbüs Macarıstan tərəfindən əngəllənib.

## Aİ-nin yeni təşəbbüsləri...

Mart ayının əvvəlində Avropa İttifaqı təhlükəsizlik siyasətində ciddi dəyişiklik edərək "ReArmEurope" ("Avropanı Yenidən Silahlandırmaq") planını qəbul edib. Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen tərəfindən ictimaiyyətə açıqlanan bu qərar, Rusiya ilə artan gərginlik, ABŞ-ın təhlükəsizlik təminatları ilə bağlı qeyri-müəyyənlik və Ukraynada davam edən müharibə fonunda verilib. Təşəbbüs hava hücumundan müdafiə sistemləri, hərbi sursat (munitions), kiber hücumlardan müdafiə sistemləri, dronlar və anti-dron sistemlərinin və digər mühüm hərbi təchizatın əldə edilməsi və Rusiya və Belarus ilə sərhəd zonada təhlükəsizliyin artırılmasını nəzərdə tutur.

Martın 19-da baş tutacaq Aİ sammitində bu mövzuda daha ətraflı müzakirələr davam etdirilsə də, prioritet müzakirə mövzusu Ursula von der Leyen tərəfindən martın 4-də 800 milyard avro büdcə ilə təqdim edilmiş iddialı "Avropanın yenidən silahlanması" planı idi. O, liderlərə Aİ ölkələrinə müdafiə ehtiyacları üçün 150 milyard avroya qədər borc götürmək təklifinin təfərrüatlarını açıqlayıb. Avropa Komissiyası bu pulu qlobal kapital bazarlarından borc götürəcək və sonra Avropadan birgə silah almaq şərti ilə Aİ ölkələrinə borc verəcək. Bu vəsait Aİ-də hava hücumundan müdafiə sistemlərinin və digər silahların istehsalına yönəldiləcək.

Von der Leyen həmçinin sammit iştirakçılarını silah istehsalı üçün 650 milyard avro toplamaq üçün cari müdafiə xərclərini 1,5% artırmağa çağırıb. Göründüyü kimi, onlar Avropa Komissiyasının planını dəstəkləyiblər, lakin Aİ səviyyəsində hərbi ehtiyaclar üçün yeni maliyyə mənbələri ilə bağlı vəziyyətin ətraflı izahını tələb ediblər. Almaniya Aİ-nin büdcə normalarında islahatların aparılması ideyası ilə qabaqcıl olub. Söhbət Almaniyanın yeni kansleri Fridrix Merzin hərbi xərclərin artırılmasına maneələrin aradan qaldırılması və bu məqsədlə borclanma qaydalarına yenidən baxılması təşəbbüsündən gedir. Financial Times-dakı mənbələrə görə, Almaniya və Fransanın "strateji sahədə aktivləşmə və müdafiəyə investisiyaların artırılması, satınalmaların birləşdirilməsi və Avropa sənaye bazasında yerləşdirilməsi kimi addımlar" məsələlərində mövqeləri daha da yaxınlaşıb.

Bununla belə, Avropa İttifaqı Trampın Ağ Evə rəhbərlik etdiyi müddətdə Ukrayna üçün müdafiə və silah xərclərini öz ödəməli olacağından ehtiyat edir. Bu barədə Avropa diplomatlarına istinadən "Politico" məlumat yayıb. Onlar həmçinin fon der Leyenin "Avropanı yenidən silahlandırmaq" planını həyata keçirmək qabiliyyətinə şübhələrini bildirirlər. "Fon der Leyen öküzün buynuzlarından tutmağa çalışır. Bəs Aİ-nin texnokratik strukturu da buna əməl edəcəkmi?", deyə diplomatlar soruşur. Beləliklə, Avropa Komissiyasının təşəbbüsü Avropa Sabitlik Mexanizminin (FHN) səfərbər edilməsi imkanlarını nəzərdən keçirir. Lakin bu ideya hüquqi və siyasi maneələrlə üzləşir. Axı İtaliya, məsələn, müqaviləni ratifikasiya etmədi və onun ilkin məqsədi hərbi deyildi. Üstəlik, FHN yalnız Aİ ölkələrini, o cümlədən Polşanı istisna edən avrozona ölkələrinə aiddir.

Fon der Leyenin təşəbbüsü Fransa prezidenti Emmanuel Makronun Ukraynaya hərbi ekspedisiya qüvvələrinin göndərilməsi təkliflərindən ayrı nəzərdən keçirilə bilməz. Böyük Britaniyanın baş naziri Key Starmerin Ukraynanın maliyyələşdirilməsində fəaliyyəti və Ukraynanın dəniz və havasında Britaniya-Fransa qoşunlarının olmasına haqq qazandırmaq cəhdləri diqqətdən kənarda qala bilməz. Fon der Leyen, Makron və Starmerin hərəkətləri və təklifləri koordinasiya hissi yaradır. Bununla belə, Aİ-nin 27 ölkəsi arasında birlik və iradə yoxdur və bunsuz hər hansı planın reallaşması mümkün deyil.

*Ardı Səh. 6*

# Avropanın silahlanma arxitekturası




Əvvəli-Səh-5

### Silahlanma qərarı nə deməkdir?

Aİ-nin silahlanma qərarı mövcud geosiyasi qeyri-müəyyənlik və təhlükəsizlik riskləri fonunda Avropanın strateji müstəqilliyə (strategic autonomy) nail olmaq məqsədilə qəbul edilib. "ReArmEurope" planı çərçivəsində önümüzdəki illərdə 800 milyard avroya qədər vəsaitin hərbi məqsədlər üçün səfərbər edilməsi nəzərdə tutulur. Artıq Baltikyanı ölkələr, Polşa, Böyük Britaniya, Fransa, Almaniya və digər NATO ölkələri gələcəkdə hərbi xərcləri artıracaqlarını bəyan ediblər. Martın 6-da Hollandiyanın baş naziri Dik Şof bildirib ki, bu vəsaitin 700 milyon avrosu dronlara xərclənəcək.

Almaniya zirehli texnika istehsalının bərpası üçün yeni zavodlar yaradır. Xüsusilə, Almaniyanın "Flensburger Fahrzeugbau Gesellschaft" (FFG) şirkəti 2036-cı ildə Flensburqda 75 milyon avro dəyərində zirehli maşınların istehsalı və təmiri üzrə zavod tikməyi planlaşdırır. FFG-nin məlumatına görə, zavod zirehli piyada maşınları ilə yanaşı, ACSV G5 (şassisi Rheinmetall Skyranger 30 özüyeriyən zenit-artilleriya sistemlərinin əsasını təşkil edən zirehli döyüş dəstək maşını) və Wisent 2 (zirehli mühəndis-deşikli maşınlar üçün - BİM) istehsal edə biləcək. "Wisent 2" "Leopard 2" tankının şassisi üzərində qurulub və ilk növbədə minalardan təmizləmə, yeni güclü möhkəmləndirilmiş minalanmış sahələrə hücum etmək üçün mühəndis maşını kimi istifadə olunur.



### Təhlükə altındakı Avropa?

Əgər ABŞ NATO-dan kənarda əsas müttəfiq kateqoriyasına keçərsə, Avropa təhlükəsizliyinin təminatçısı kimi çıxış edəcək birini tapmaq son dərəcə çətin olacaq. Fransa və İngiltərə həvəsli görünürlər, lakin Avropada güc və siyasi nüfuza malik deyillər. Almaniyanın nə istəyi var, nə də gücü. Polşa isə indiki məqamda hər kəs üçün gülməli görünən ölkədir.




Məntiqli sual: Nə üçün Amerika Avropanı nüvə çətiri ilə təmin etməklə öz nüvə məhvini riskə atmalıdır? Axı Avropada nüvə çətirini təmin edə biləcək yeganə ölkə ABŞ-ı bir neçə dəfə yer üzündən silmək üçün kifayət qədər nüvə silahına malik Rusiya nəzərdən qaçmamalıdır.

Avropa tədricən Amerikanın müstəmləkəsinə çevrilib – siyasi, iqtisadi və hərbi baxımdan Vaşinqtona tabe olub, mədəni və ideoloji beyinlərin yuyulmasına məruz qalıb. NATO-nun gücü əsasən ABŞ ordusundan gəlir və alyans kral-vassal prinsipi əsasında təşkil olunub. Avropanın müdafiə xərclərinin artırılması ilə bağlı məsuliyyəti öz üzərinə götürmək istəməməsi ilə bağlı tənqidlər yersiz deyil. NATO-nun ərazisi nə qədər böyük olarsa, yükü də bir o qədər ağır olar. Ukraynadakı münaqişəsi Finlandiya və İsveçi NATO-ya sürüdü. 2028-ci ilə qədərki Tramp hakimiyyəti dövründə Avropa ABŞ-ın vazkeçilməz müttəfiqi deyil, sadəcə bir paraziti rolunda qalmaqda davam edəcək.

Avropanın dərhal uzunmüddətli narahatlığı ABŞ-a güvənmədən təhlükəsizliyini təmin etmək üçün öz qüvvələrini yaratmaq olmalıdır. Dəyərlər və sərt söhbətlər silah kimi istifadə edilə bilməz: Avropada çatışmayan şey sərt gücdür.

Zaman-zaman "Avropa ordusu"nun yaradılması çağırışları səslənirdi, amma sonda onların hamısı heç nə ilə bitirdi. İndi Avropa yenidən 20-45 min nəfərlik səhra ordusunun yaradılmasını tələb edir. Almaniya, Fransa və Böyük Britaniya çətin ki, bir yerə kifayət qədər qüvvə cəmləsin. Ordu yaratmaqda məqsəd nədir: ekspedisiya üçün, yoxsa Rusiyadan müdafiə üçün? NATO anti-Rusiya müdafiə hərbi strategiyası həyata keçirsə belə, təşkilat daxilində siyasi fikir ayrılıqları aradan qalxmayacaq. Avropa daxilində hərbiləşdirmə, hərbi-sənaye kompleksinin gücləndirilməsi, müdafiə xərclərinin artırılması, vahid ordunun yaradılmasının zəruriliyi məsələlərində hələ də konsensusa gəlmək mümkün deyil. İfrat sağçılar və avroskeptiklər NATO və Aİ kimi strukturlara kökündən qarşıdırlar. Onlar hələ Avropa siyasətində əsas istiqamətə çevrilməyiblər, lakin bir vaxtlar Trampın prezident olmaq ehtimalının az olduğu düşünürdülər.

Uzunmüddətli problem müstəqil Avropa hərbi sənayesinin yaradılmasıdır. Tanklar, artilleriya, yüngül silahlar və sualtı qayıqlardan əlavə, demək olar ki, bütün Avropanın qabaqcıl hərbi texnologiyası Amerika təchizatını tələb edir. Əgər NATO ABŞ-dan ayrılmaq istəyirsə, bu baxımdan müstəqil olmalıdır. Bununla belə, ABŞ-ın NATO-dakı liderliyindən əl çəkdiyini düşünmək olmaz. Dövlətlər ziddiyyətlərə əhəmiyyət vermir, onlar öz tortlarını alıb yemək istəyirlər. Hamısı hegemon olmaq naminə.

### Fransa nüvə çətiri qurur?

Fransa prezidenti Emmanuel Makronun həmvətənlərini vahid Avropa ölkələrinə qarşı mümkün təcavüzü dəf etməyə hazırlaşmağa çağırması onun hökumətinin nazirləri və hər şeydən əvvəl müdafiə naziri Sebastyan Lekornu tərəfindən dəstəklənib. O, dərhal yeni hərbi gəmilər, təyyarələr və ən əsası pul tələb edib. Moskvada Fransa liderinin sözləri "son dərəcə qarşıdurma" kimi qiymətləndirilib, bunun sülh haqqında deyil, müharibə haqqında düşünən dövlət başçısının çıxışı olduğunu qeyd ediblər.

Yelisey Sarayının rəhbəri 5 mart axşamı televiziyada xalqa rezonans doğuran çıxış ertəsi gün də çoxlu rəy və reaksiyalar toplamaqda davam edib. Bir gün əvvəl Beşinci Respublikanın rəhbəri Rusiyanı "Fransa və Avropa üçün təhlükə" adlandırıb və uzun illər Moskvanı "Ukrayna münaqişəsini qlobal münaqişəyə çevirməkdə" ittiham edib. Bu vəziyyətdən çıxan məntiqi nəticə Makronun həm Fransanın özünün, həm də bütün Avropanın müdafiə qabiliyyətini gücləndirməyə, o cümlədən Fransanın "nüvə çətirini" Avropa qitəsində müttəfiqlərin ərazisinə genişləndirməyə çağırması olub.

Fransanın müdafiə büdcəsi hazırda ildə 50,5 milyard avro təşkil edir. Ona görə də əsas sual əlavə milyardları haradan əldə etməkdir. Lakin nazir Lecornu cavab tapıb: o, "müasir Avropanın ən güclü ordusunun" texniki cəhətdən yenidən təchiz edilməsi üçün istifadə edə biləcək Aİ müttəfiqlərinin vəsaitlərindən, həmçinin fransızların qənaətindən (çox güman ki, məqsədli kreditlər şəklində) istifadə etmək imkanlarına istinad edib.

***V.VƏLİYEV***

# İnklüziv təşəbbüsləri dəstəkləyən "Nar" "DanceAbility" iştirakçıları ilə görüşüb




Ölkənin ən sərfəli mobil xidmətlərini təqdim edən "Nar" inklüziv cəmiyyətin inkişafına dəstək məqsədilə "Bütün Vücudlar Danışır" sosial-mədəni layihəsinin iştirakçıları ilə görüş keçirib. Mobil operatorun əməkdaşları layihənin iştirakçıları ilə görüş keçirib və onların rəqslərinə qoşularaq unikal inklüziv təcrübəni birlikdə paylaşıblar. Görüş zamanı "Nar"ın baş icraçı direktoru Qunnar Panke inklüzivliyin cəmiyyətin inkişafındakı rolunu vurğulayıb:"Hər kəsin cəmiyyətin fəal üzvü olması üçün bərabər imkanlara sahib olması vacibdir. "Bütün Vücudlar Danışır" layihəsi fiziki imkanlarından asılı olmayaraq, hər kəsin özünü ifadə etməsinə və birlikdə dəyər yaratmasına imkan verir. "Nar" olaraq, inklüziv cəmiyyətin qurulmasına töhfə vermək bizim üçün sosial məsuliyyətin vacib hissəsidir. Biz dəstəklədiyimiz təşəbbüslərin real dəyişiklik yaratmasına önəm veririk və bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".

"Nar" sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri kimi inklüzivliyi və bu yöndə cəmiyyətdə bərabər imkanların yaradılmasını dəstəkləyir. Mobil operator "Bütün Vücudlar Danışır" layihəsinə verdiyi töhfə ilə fiziki məhdudiyyətlərə dair stereotiplərin aradan qaldırılmasına və inklüziv cəmiyyətin qurulmasına dəstək olmağa davam edir.

# Azərbaycan-Şimali Makedoniya dostluğu yeni mərhələyə qədəm qoyur



*Eldar İbrahimov*
*YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri*

Azərbaycan dünyanın əksər ölkələri ilə iki və çoxtərfli əməkdaşlıq əlaqələrinə, dostluq, qardaşlıq münasibətlərinə malikdir. Ölkəmiz beynəlxalq arenada əməkdaşlığı genişləndirərək müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, ATƏT, AŞ PA, İslam Əməkdaşlıq Təşkilatı, GUAM, Türk Dövlətləri Təşkilatı, MDB, Qoşulmama Hərəkatı və bir sıra digər nüfuzlu təşkilatlara üzv olmuşdur. Ümumilikdə Azərbaycan hazırda 158 ölkə ilə diplomatik əlaqələrə malikdir. Ölkəmizdə 43 dövlətin diplomatik nümayəndəliyi və konsulluğu, 10-dan çox beynəlxalq təşkilatın nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycanın xarici ölkələrdəki səfirliyi, daimi nümayəndəliyi və baş konsulluqlarının sayı isə 60-a qədərdir. Ayrı-ayrı ölkələrlə və beynəlxalq təşkilatlarla əlaqələrini genişləndirməklə Azərbaycan öz milli və dövlətçilik maraqlarını müdafiə edir. Hər bir xarici dövlət, beynəlxalq təşkilat Azərbaycanla münasibətlər qurmağa, əməkdaşlıq əlaqələri yaratmağa can atır. Bu da ölkəmizin, onun lideri Prezident İlham Əliyevin müdiri siyasət aparması, beynəlxalq aləmdə böyük nüfuza, hörmətə malik olmasından irəli gəlir. Yeni əsrin yeni lideri Prezident İlham Əliyev bu 21 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirib. 44 günlük Vətən savaşı ilə Ali Baş Komandan , Prezident İlham Əliyevin komandanlığı ilə Müzəffər ordumuz 30 illik erməni işğalına son qoyaraq ərazi bütövlüyümüzü və suverenliyimiz bərpa etdi. Fateh Sərkərdə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu bütün vədlərini həyata keçirdi və istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirək güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu. Bu baxımdan hər bir xarici ölkə və beynəlxalq təşkilat güclü və qüdrətli azərbaycanla əməkdaşlıq əlaqələri qurmaqda maraqlıdır. Ölkəmizə son vaxtlar xarici ölkələrin dövlət və hökumət başçılarının səfərləri məhz Azərbaycanla müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələrini qurmaq məqsədi ilə edilir. Martın 11-də Şiçali Makidoniya Respublikasının prezidenti Qordana Silyanovska Davkovanın Azərbaycana səfəri ölkəmizin dünya dövlətləri ilə əməkdaşlığının daha bir nümunəsi hesab olunur. Azərbaycan Prezidenti İlham Əliyev və Şimali Makedoniya Prezidenti Qordana Silyanovska Davkova arasında keçirilən görüşü və müxtəlif məsələlər ətrafında müzakirələri hər iki ölkənin iqtisadi, ticarət, enerji və nəqliyyat sahəsində əməkdaşlığının inkişafında yeni mərhələnin əsası olacaq.

## Oxşar keçmişə malik iki xalq

Şimali Makedoniya Şimal-şərqdə Serbiya, şimal-qərbdə Kosovo, qərbdə Albaniya, cənubda Yunanıstan, şərqdə isə Bolqarıstanla həmsərhəddir. Ölkənin paytaxtı və ən böyük şəhəri Skopye şəhəri, ümumi sahəsi 25,713 kvadrat kilometrdir. Şimali Makedoniya keçmiş Yuqoslaviyanın tərkibində yer alan ölkələrdən biri olmuşdur və 8 sentyabr 1991-ci ildə öz müstəqilliyini elan etmişdir. Ölkə 1991-ci ildən 2019-cu ilin fevral ayınadək Makedoniya Respublikası, daha sonra ölkə parlamentinin qəbul etdiyi qərarla Şimali Makedoniya Respublikası adlanmışdır. Şimali Makedoniya parlamentli respublikadır və Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, NATO-nun və digər beynəlxalq təşkilatların üzvüdür. Şimali Makedoniya 2005-ci ilin dekabr ayından Avropa İttifaqına üzv olmaq üçün danışıqlar aparır.

Tarixi reallıqlara əsasən demək olar ki, Azərbaycanla Respublikası ilə Şimali Makedoniya oxşar tarixi keçmişə,malik dövlətlərdir. 1990-cı ilin əvvəllərində SSRİ-nin dağılması ilə digər kommunist düşərgələrində, o cümlədən də Yuqoslaviyada geosiyasi dəyişiklər baş verdi. Daha doğrusu Yuqoslaviyada 6 region özlərinin müstəqil dövlətlərini qurmaq uğrunda mübarizəyə başladılar. Şimali Makedoniya xalqı da müstəqili dövlətlərini qurmaq üçün mücadiləyə qalxdılar. Müstəqilliyini əldə etsə də, Şimali Makedoniya xalqı böyük itkilərə məruz qaldı, şəhər və kəndləri dağıntılarla üzləşdi. Bu baxımdan Şimali Makedoniya ilə Azərbaycan eyni talelərə, oxşar keçmişə malik dövlətlər olduqlarını qeyd etmək olar. Azərbaycanda müstəqilliyinin ilk illərində çətin, ağır dövr keçməli oldu. İtkilərə, faciələrə məruz qaldı. Azərbaycanda hökm sürən xaos və anarxiyadan yararlanan erməni hərbi terrorçu birləşmələri torpaqlarımız işğal etdi. Yalnız bu kimi ağrılı, acılı problemlərə Ulu Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra qoyuldu. Bu gün isə Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən, sakit, sabit, güclü Azərbaycan mövcuddur.

Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlər 1995-ci il də qoyulub. Həmin ildə Azərbaycan Şimali Makedoniyanın müstəqilliyini tanıyıb. 2023-cü ildə Azərbaycanın Serbiyadakı səfiri, eyni zamanda, Şimali Makedoniyaya təyin olunub. Azərbaycan Şimali Makedoniya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. Şimali Makedoniya Respublikasının keçmiş prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə Azərbaycanda işgüzar səfərlərdə olmuşdur. Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani 2023-cü ilin aprelində Bakıya işgüzar səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. 2000-ci ildə Şimali Makedoniya və Azərbaycan parlamentlərarası işçi qrupu yaradıb və bu qrup hazırda uğurla fəaliyyət göstərir.

## Azərbaycan Şimali Makedoniyanın enerji müstəqilliyinə mühüm töhfə verir

Bu gün Azərbaycanla Şimali Makedoniya arasında siyasi, sosial-iqtisadi, hərbi və digər sahələrdə ikitərəfli diplomatik münasibətlər mövcuddur. Xüsusilə də enerji əməkdaşlığı sahəsində hər iki xalqın maraqlarına cavab verən yüksən əməkdaşlıq mövcuddur. Hazırda bir sıra ölkələrlə yanaşı Şimali Makedoniya Azərbaycan qazını alır. Bu da Şimali Makedoniyanın enerji müstəqilliyinə mühüm töhfə verir. Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkovan ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə iki ölkə arasında enerji sahəsində əməkdaşlığın bundan sonra daha da artırılması razılığına gəlinib. Mətbuata verdiyi bəyanat zamanı Prezident İlham Əliyev qaz təchizatının davam etdirilməsinin vacibliyini vurğuladı və Azərbaycanda yeni qaz yataqlarının işlənilməsi sayəsində gələcəkdə həcmlərin artırılmasının mümkünlüyünü qeyd etdi. Onu da bildirdi ki, son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır: Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq".

Prezident İlham Əliyev çıxışında onu da xatırlatdı ki, keçən səfəriniz çərçivəsində Siz Azərbaycanın mədəni həyatı ilə də tanış olmusunuz və bilirəm, sabahkı proqramınızda da buna oxşar tədbirlər var: " Biz bunu çox müsbət qarşılayırıq, bunu alqışlayırıq. Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz, eyni zamanda, XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu Forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq. Siz bizim tələbələrimizlə də görüşəcəksiniz. Buna görə də Sizə təşəkkürümü bildirirəm. Sizin siyasi və dövlət xadimi kimi çox böyük təcrübəniz var. Siz beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə çalışmısınız, eyni zamanda, ölkənizdə müxtəlif mərhələlərdən keçərək ən yüksək vəzifəyə layiq görülmüsünüz. Ona görə Sizin dəyərli fikirləriniz hamımız üçün çox maraqlı ola bilər".

Təbii ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova arasında keçirilən görüş iki ölkə arasındakı əlaqələrin inkişafına mühüm töhfə verəcək. Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova mətbuata bəyanatlarla çıxışında qısa müddətdən sonra Bakıya səfər etmək fürsətinə görə minnətdarlığını çatdırdı: "Mədəniyyət diplomatiyasının gücünə dərindən inanan bir şəxs kimi cənab Prezidentə söylədim ki, mən həqiqətən buraya yenidən gəlməyimi arzulayırdım. Bununla belə, mən məlumatım olmadığı bəzi məsələləri də artıq müzakirə etdim. Ölkəniz müsəlman Şərqində ilk cümhuriyyət qurmuşdur, eləcə də ilk opera, ilk filarmoniya məhz burada yaradılmışdır. Bu ölkə öz zəngin mədəniyyəti ilə seçilir. Ötən dəfə söylədiyim kimi, ilk dəfə ziyarət edə bilmədiyim muzeylərə bu dəfə gedəcəyəm. Bu fürsətə görə Sizə təşəkkürümü bildirirəm".

## "Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir"

Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova çıxışında bildirdi ki, Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir: "Mən Cənab Prezidentə söylədiyim məsələləri bir daha vurğulayıram ki, biz irəliyə doğru addımın atılmasını gözləyirik və əməkdaşlığa dair bəyannaməyə və ya razılaşmaya imza atacağıq. Bu, o demək deyil ki, biz yalnız qaz təchizatında Azərbaycandan yardım alacağıq, o cümlədən iqtisadi əməkdaşlıq üçün də imkanlar yaranacaq. Mən qarşımda xarici işlər nazirini görürəm, biz dərhal diplomatik və xidməti pasport sahibləri üçün viza tələbinin tətbiqi kimi təəccüblü bir vəziyyətə son qoyacağıq. Zənnimcə, bu, nə Şimali Makedoniyanı, nə də Azərbaycanı qane edən vəziyyət deyil və bu addımın atılması iki xalq arasında yaxınlaşmaya xidmət edəcəkdir. Ümid edirəm ki, biz Azərbaycanın mədəniyyətini də tanımağa davam edəcəyik. Bundan əlavə, elm sahəsində də universitetlərimiz arasında əməkdaşlığın qurulmasına nail ola bilərik. Azərbaycan hətta təyyarədən belə çox gözəl görünür, ölkəniz ilə əyani tanışlıqda isə o, insanı valeh edir. Bu səbəbdən turizm sahəsi də əməkdaşlıq edə biləcəyimiz sahələrdəndir.Artıq qeyd etdiyimiz kimi, bu günədək iqtisadiyyat sahəsində əhəmiyyətli addımlar atılmamışdır. Coğrafi mövqeyimizə görə biz Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir. Sonuncu dəfə ölkənizdə olarkən bu fikri söyləmişdim və bu gün də təkrar bəyan etmək istəyirəm ki, biz bir-birimizdən bir çox şey öyrənə bilərik və bu səfər dərin dostluğun təməli olacaqdır. Mən təkcə Dövlət Neft Şirkəti ilə müqaviləni nəzərdə tutmuram. Hesab edirəm ki, gələcəkdə əldə olunan bütün razılaşmalar bizi daha da yaxınlaşdıracaq. Cənab Prezidentə söylədiyim sonuncu fikir ondan ibarət idi ki, XXI əsrdə yenidən dünya nizamı ilə bağlı fərziyyələrin irəli sürülməsi insanı sarsıdır. Ukrayna da daxil olmaqla, bu geniş region dünyada cərəyan edən hadisələrin özəyini təşkil edir və müxtəlif tərəflər bu regionda təsir gücünə malik olmaq istəyir. Zənnimcə, Avropa yenidən qapılarını açır və sizin nailiyyətləriniz sayəsində biz gələcək əməkdaşlığımızı davam etdirə bilərik".

Bir sözlə, görünən ondan ibarətdir ki, Azərbaycan nəinki , islam ölkələri, türk dünyası ilə geniş və sıx əməkdaşlıq əlaqələri qurur, eləcə də Avropa dövlətləri ilə dostluq münasibətləri yaradır. Balkan yarımadası dövlətləri ilə, xüsusilə də Şimali Makedoniya Respublikası ilə əməkdaşlıq münasibətlərini genişləndirməsi ölkəmizin gücünə yeni güc qatmaqla yanaşı, beynəlxalq aləmin əsas aparıcı dövlətlərdən biri olduğunu təsdiqləyir.

# Azərbaycandan sülh mesajları

***Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq 12-ci ildir ki, ölkəmizdə uğurla təşkil olunur. Cənubi Qafqazda güclü dövlət, Avrasiya geostrateji məkanında həyata keçirilən çox mühüm qlobal layihələrin əsas təşəbbüskarı kimi tanınan Azərbaycan dünyanın qlobal məsələlərin müzakirə edildiyi və problemlərdən çıxış yolunun tapıldığı siyasi mərkəzə çevrilib. Azərbaycanda keçirilən bu cür qlobal miqyaslı tədbirlərdə iştirak etmək üçün gələn qonaqlar ölkəmizin inkişafını, sosial-iqtisadi tərəqqisini əyani olaraq görürlər.***




## *Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur"*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumu zamanı "Euronews" televiziyasına müsahibə verərkən ona ünvanlanan "Builki tədbirin nəticələri ilə bağlı gözləntiləriniz nədən ibarətdir?" sualını cavablandıraraq "Ümid edirəm ki, iştirakçılar ənənəvi olaraq qlobal gündəlikdə duran məsələlər barədə öz mövqelərini, fikirlərini və yanaşmalarını bölüşəcəklər, xüsusilə bu gün beynəlxalq arenada vəziyyətin kəskin şəkildə dəyişdiyi bir vaxtda. Bu Forumun iştirakçılarının adları onun potensialını əks etdirir", - deyə bildirib. "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusuna həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, Nobel mükafatı laureatları, alimlər və ekspertlər iştirak edirdi.

Tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Rəsmi Bakı öz baxışları ilə dünyanın tanınmış siyasi liderlərinə mühüm ismarışlar verə bilir.

### "QLOBAL TRANSFORMASİYANIN İLKİN MƏRHƏLƏSİNDƏYİK"

Qeyd etdiyimiz kimi, builki Forumun mövzusu "Dünya düzəninin yenidən düşünülməsi" idi. "Sizcə, bizim hamımızın qlobal səviyyədə üzləşdiyi əsas çağırışlar nədən ibarətdir?", - sualını Azərbaycan Prezidenti belə cavablandırıb: "Bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var.

İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir. Əlbəttə, biz hələ ki, qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq".

### "ƏTRAFIMIZDA BAŞ VERƏN BÖHRANLARDAN REGİONUMUZUN QORUNMASI VACİB MƏSƏLƏDİR"

Forumda səslendirilən çağırışlar gələcəklə bağlı ümidlərin yaranmasına və bunların reallıqda öz əksini tapmasına xidmət etməlidir. Müasir Azərbaycan təkcə sivilizasiyalararası dialoqa deyil, əməkdaşlıqlar üçün də mühüm platformadır. Bakının son zamanlar bir sıra önəmli tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın dünyada strateji tərəfdaşlığın inkişafında oynadığı roldan xəbər verir. Qarşıdurmalar, dünyanı təhdid edən təhlükələrin qarşısını almaq üçün birgə fəaliyyətin olması dövrümüz üçün zəruridir. Müsahibəsində dövlət başçımız dünyada çoxsaylı geosiyasi dəyişikliklərin şahidi olduğumuz dövrdə, xüsusilə də regionda baş verən dəyişikliklərlə bağlı mövqeyini ifadə edərkən bildirib ki, ətrafımızda baş verən böhranlardan regionumuzun qorunması vacib məsələdir: "Təəssüflər ki, onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub. Hazırda nisbətən sakit dövrdəyik və biz diqqətimizi buna yönəltməliyik. Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq".

Müsahibə verərkən "O zaman müstəqil dövlətlər deyildik, gələcəyimizi planlaşdırmaq iqtidarında deyildik və böyük mənada mərkəzi sovet hakimiyyətindən asılı vəziyyətdə idik" – deyən Prezident qeyd edib ki, ancaq ən azından Cənubi Qafqaz respublikaları arasında fəal təmaslar var idi: "Yəni, biz belə bir təcrübəyə malikik və sadəcə, bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik".

### "BİZİM ERMƏNİSTANLA SÜLH MÜQAVİLƏMİZ YOXDUR"

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi fəal praqmatik siyasət, dünya miqyasında nüfuzlu siyasətçi imici, liderlik xüsusiyyətləridir ki, bu gün ölkəmiz böyük imicə sahibdir. Azərbaycanın artan beynəlxalq nüfuzu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynayır. Belə ki, ölkəmiz çox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verir. Bu gün Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycan sülh prosesinə sadiqdir. Azərbaycan Ermənistanla münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün ciddi addımlar atır. Müstəqillik tariximizə yeni səhifə yazan Qarabağ Zəfərimizin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz ərazi bütövlüyü, suverenliyi tam bərpa edildi. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edərək sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladı. Öz tarixi Qələbəsi sayəsində regionda yeni reallığın müəllifi olan Azərbaycan, eyni zamanda, regionun aparıcı qüvvəsidir.

Azərbaycan regionda əbədi sülhün bərqərar olmasına töhfələr verir. Azərbaycanın dünyada sülhün bərqərar olmasına töhfə vermək niyyətini ifadə etməklə yanaşı, sülhün təşviqində böyük rol oynayır.

"Gələcəyə baxışınıza gəldikdə, bu qlobal sabitliyin yekunda haraya gedəcəyini görürsünüz? Sizcə, biz buna nail olacağıq?" sualına cavab olaraq dövlətimizin başçısı bu məsələdə o qədər də nikbin olmadığını bildirib: "Mən realist olmağa üstünlük verirəm. Növbəti aylar və ya hətta illərdə sabitliyə nail olacağımızı düşünmürəm. Rusiya-Ukrayna müharibəsindən söhbət gedirsə, hətta müharibə dayansa belə, müharibənin yenidən başlamayacağına dair heç bir zəmanət yoxdur. Bir vaxtlar demək olar ki, otuz il ərzində bizdə - Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi. Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu, müharibənin sona çatması demək deyildi. Sadəcə, transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir. Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq".

### AZƏRBAYCANIN DÜNYADA SÜLHYARATMA PROSESİNDƏ FƏAL İŞTİRAKI

Sülh bugünki dünyanın, zamanın tələbinə çevrilib. Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginliklər, məhz sülhün bərqərar olunmasını tələb edir. Sülh əlbəttə ki, dövlətlərin bir-biri ilə münasibətlərində anlaşma və qarşılıqlı münasibətlər fonunda yaranır və dərinləşir. Müharibələr, zorakılıq, dini zəmində qarşıdurmalar, kəskin münaqişələrin yaranması sülhün pozulmasına rəvac verir. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir. Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Qlobal Bakı Forumu kimi, tədbirlərin ölkəmizdə təşkili sülh şəraitinin formalaşmasında əhəmiyyətlidir. Prezident İlham Əliyevin bildirdiyi kimi, belə çoxsaylı qonaqların iştirak etdiyi toplantılar hadisələri müvafiq şəkildə qiymətləndirmək, fikirləri, narahatlıqları və ya gözləntiləri bölüşmək üçün vacibdir: "Mənim çıxışıma nəzər salsanız görərsiniz ki, mən baş verənlərlə bağlı çox nikbin əhvali-ruhiyyədəyəm. Çıxışımda dediyim kimi, biz ABŞ-ın əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirmişdik. Onların mövqeyi bizim milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət idi. Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq. Lakin qonşu zalda bəzi insanlar var ki, onlar nikbin olmaq əvəzinə daha çox məyusdurlar. Bu da təbiidir, çünki hər bir ölkənin öz maraqları var. Hər bir siyasətçinin öz baxışları var. Mən ümid edirəm ki, burada, bu Forumda ideyaların toqquşması baş verəcək və bu da forumu uğurlu edəcək".

***Zümrüd BAYRAMOVA***

ARAŞDIRMA

# Tiroid və ondan qurtulmağın YOLLARI

***Zob xəstəlikləri reproduktiv yaşda olan qadınlarda olduqca yayılıb. Xüsusilə hamilə olan və ya uşaq sahibi olmaq istəyən qadınlarda rast gəlinən tiroid problemləri bu prosesi çətinləşdirə bilər. Ancaq mütəmadi və tam müayinələrdən keçmək, təqib edən həkimlərin tövsiyələrinə ciddi əməl etmək, lazım olduqda hamiləlikdən əvvəl lazımi müalicələri almaq tiroid baxımından bu dövrü problemsiz keçməyə imkan verəcək.***





SİA mövzu ilə bağlı araşdırma aparıb.

Türk Memorial Bahçelievler Xəstəxanası Endokrinologiya və Metabolik Xəstəliklər Hissəsi Prof. Dr. Ayşe Kubat Üzüm hamiləlik dövründə tez-tez yaşanan qalxanabənzər vəzi problemləri haqqında mühüm məlumatlar verib.

## Tiroid hormonu körpənin inkişafında mühüm rol oynayır

Qalxanabənzər vəzi boynun orta xəttində, traxeyanın qarşısında yerləşən mühüm endokrin orqandır. Qalxanabənzər vəzinin xəstəlikləri reproduktiv yaşda olan qadınlarda çox rast gəlinir. Qalxanabənzər vəzi hormonları həm hamiləliyin düzgün davam etməsində, həm də ana və körpənin sağlamlığında çox mühüm rol oynayır. Hamiləlik dövründə tiroid bezi, hər bir endokrin bez kimi, bir qədər böyüyür. Qalxanabənzər vəz T3 və T4 adlı iki hormonun ifrazından məsuldur. Sağlam bir hamiləlikdə T4 hamiləliyin 7-ci həftəsindən artmağa başlayır və 16-cı həftədə ən yüksək dəyərlərə çatır. Bu hormonun artması böyüməkdə olan körpənin həm zehni, həm də fiziki inkişafı üçün çox vacibdir. Hamiləliyin ilk dövrlərində körpənin qalxanabənzər vəzi işləmədiyi üçün anadan körpəyə keçən tiroid hormonları xüsusilə körpənin mərkəzi sinir sisteminin inkişafında mühüm rol oynayır. Hamiləliyin 16-17-ci həftələri 2-ci həftədə körpənin qalxanabənzər vəzi də hormon istehsal etməyə başlayır, lakin bunu da unutmaq olmaz. Tiroid hormonunun anadan körpəyə keçməsi demək olar ki, hamiləliyin son həftələrinə qədər davam edir.

Hamilə qadınlara gündəlik 200-250 mkq



yod qəbul etmək tövsiyə olunur. Yod, tiroid hormonunun istehsalı üçün çox vacib bir maddədir və körpənin kifayət qədər miqdarda tiroid hormonu istehsal etməsi üçün anadan müvafiq miqdarda yod köçürülməlidir. Hamiləlik dövründə ananın yoda ehtiyacı artır. Bundan əlavə, yod çatışmazlığı ölkəmizdə hələ də çox mühüm problem olaraq qalır. Həm körpənin sağlam inkişafı, həm də anada zob əmələ gəlməsinin qarşısını almaq üçün hamilə qadınların gündəlik 200-250 mkq yod qəbul etmələri tövsiyə olunur. Yodun ən mühüm mənbəyi yodla zəngin duzlardır. Həkimin nəzarəti altında yod preparatlarının qəbulu da lazım ola bilər.

Bu kriteriyalara cavab verirsinizsə Övlad gözləyən ana:

- 30 yaşdan yuxarı olarsa
- Qalxanabənzər vəzi az və ya həddindən artıq aktivdirsə



- Əgər sizdə guatr və ya Haşimoto tiroiditi kimi tiroid xəstəliyi varsa
- Əgər əvvəllər tiroid əməliyyatı keçirmisinizsə
- İmmunitet sisteminizə təsir edən bir xəstəliyiniz varsa, məsələn, tip 1 diabet.
- Anamnezdə aşağı düşmə, vaxtından əvvəl doğuş, hamiləliyin itirilməsi və ya hamiləlik zamanı yüksək təzyiq varsa
- Əgər sonsuzluq müalicəsi keçirsə
- Ailədə tiroid xəstəliyi varsa
- Bir insan yod çatışmazlığı olan ərazidə yaşayırsa, tiroid hormonlarının səviyyəsi ölçülməlidir.

Hipotiroidizmə diqqət yetirin!

Hipotiroidizm tiroid bezinin kifayət qədər miqdarda tiroid hormonu istehsal edə bilməməsidir və hamiləlik zamanı ümumi bir vəziyyətdir. Digər tərəfdən, hipotiroidizm Hashimoto xəstəliyində və əvvəlki tiroid əməliyyatından sonra da tez-tez görülür. Gələcək anaya hipotiroidizm diaqnozu qoyularsa, müalicəyə gecikmədən başlamaq lazımdır və məqsəd hamiləlik həftəsinə uyğun olaraq tövsiyə olunan tiroid hormonu dəyərlərinə çatmaq olmalıdır. Əgər hamiləlik mayalanma və ya in vitro gübrələmə kimi köməkçi reproduktiv üsullarla planlaşdırılırsa, tiroid hormonları əvvəlcədən hədəf dəyərlərə çatdırılmalıdır.

Əgər sizə əvvəllər hipotiroidizm diaqnozu qoyulubsa və müalicə alırsınızsa, hamiləlik zamanı daha yüksək dərman dozalarının lazım olacağını unutmayın. Hamilə olduğunuzu anlayan kimi gündəlik dərman dozasını 25-30% artırmalı və ən qısa müddətdə daxili xəstəliklər mütəxəssisi və ya endokrinoloqa müraciət etməlisiniz.



## Hipertiroidizm hər 1000 hamiləlikdən yalnız 2-də baş verir

Qalxanabənzər vəz tərəfindən tiroid hormonlarının həddindən artıq istehsalına hipertiroidizm deyilir və hipotiroidizmdən fərqli olaraq hər 1000 hamiləlikdən yalnız 2-də müşahidə olunur. Ən çox rast gəlinən səbəb Qraves xəstəliyi (85-90%) olsa da, bəzən qalxanabənzər vəzin düyünləri də hipertiroidizmə səbəb olur. Hipertiroidizmin əlamət və simptomlarına əsəbilik, titrəmə, ürək döyüntüsü, tərləmə, istiyə dözümsüzlük, kilo itkisi, yuxusuzluq, bağırsaq hərəkətlərinin artması və guatr daxildir. Bu tapıntılar normal hamiləlikdə tez-tez rast gəlindiyindən, fərqinə varmaya bilər. Diferensial diaqnostikada tiroid funksiya testləri vacibdir. Hipertiroidizm düzgün müalicə olunmazsa, ana və körpədə mənfi hadisələrə səbəb ola bilər. Anada abort, plasentanın ayrılması, vaxtından əvvəl doğuş, ürək çatışmazlığı, hipertoniya və tiroid fırtınası inkişaf edə bilər. Bu, vaxtından əvvəl doğuşa, aşağı çəkiyə və ölü doğuşa səbəb ola bilər. Hamiləlik dövründə hipertiroidi olan anaların tiroid testləri dölün düşmə riskinin qarşısını almaq üçün yaxından izlənilməli və lazım olduqda müalicəyə başlanmalıdır.

Hipertiroidi olan qadın hamilə qalmağı planlaşdırırsa, onun qalxanabənzər vəzi xəstəliyi ilk növbədə cərrahiyyə və ya radioaktiv yod müalicəsi ilə qalıcı şəkildə aradan qaldırılmalı və tiroid hormonları normallaşdıqdan sonra hamiləliyə icazə verilməlidir.

## Hamiləlik dövründə həddindən artıq tiroid hormonu müvəqqəti ola bilər

Hamiləlik dövründə fərqləndirilməsi lazım olan əhəmiyyətli bir vəziyyət, hamiləliyə bağlı olaraq tiroid hormonlarının müvəqqəti artmasıdır. Qanda yüksələn hamiləlik hormonu (beta-hCG) qalxanabənzər vəzinə stimullaşdırıcı təsir göstərir və bu hormonun təsiri ilə hamiləliyin ilk aylarında tiroid hormonunun müvəqqəti artıqlığı yarana bilər. Hamiləliyin 6-8-ci həftələrində baş verir və hamiləliyin 18-20-ci həftələrində diaqnoz qoyulur. Bir həftə ərzində kortəbii şəkildə həll olunur. Ekstrakorporal mayalanma müalicəsi alanlarda əkiz hamiləlik halları daha yüksəkdir. Adətən ürəkbulanma və qusma ilə müşayiət olunur. Bu vəziyyətdə, əksər hallarda, tiroid müalicəsi tələb olunmur.

Mövzu ilə bağlı uşaq endokrinoloqu Nabat Ağayevanın fikirlərini öyrəndik: “Zob bir qədər loru dildə, el arasında işlədilən addır. Əslində bu, qida borusunun ön tərəfində yerləşən, kəpənək şəkilli kiçik bir orqandır. Elmi dildə adı “tireoidit”dir, Azərbaycan dilində isə “qalxanabənzər vəz” adlanır. Onun böyüməsinə tireoidit və yaxud da ur deyilir. Əvvəllər də buna zob deyilirdi, rus ədəbiyyatında da bu ad işlədilib.

Bu vəz insan orqanizmində olduqca vacib rola malikdir. İnsanın əqli inkişafı, fiziki inkişafı, əhvalı və bir çox mübadilə prosesləri bu orqanın fəaliyyətindən asılıdır. Bu orqan böyüyərsə, demək ki, onun fəaliyyətində çatışmazlıq var. Hormonları çatışmadığı üçün kompensator olaraq böyüyərək öz fəaliyyətini davam etdirmək istəyir. Belə olduqda həm bu böyümə nəfəs borusuna təzyiq göstərir və insanda diskomfort yaradır, həm də hormonları az olduğu üçün artıq normal fəaliyyət göstərə bilmir.

Bunun bir çox növləri var. El arasında “zəhərli” və “zəhərsiz” zob deyilən növləri mövcuddur. Burada sözsüz ki, orqanizmin hansısa zəhər ifraz etməsindən söhbət gedə bilməz. Əgər qalxanabənzər vəzi çox işləyərsə, buna “zəhərli zob” deyilir. Zəif işləyərsə, buna “tənbəl zob” deyilir. Hər biri müəyyən problemlər yarada bilər.

Diaqnozun və hormonal durumun vəziyyətindən asılı olaraq müalicə fərqli seçilir ki, insan həyatına normal davam edə bilsin. Bəzi hallarda müalicəyə tabe olmayan xəstələrdə radioaktiv yod müalicəsi, radioaktiv həblər qəbul olunur və yaxud da ən ağır hallarda, heç bir müalicə effekt vermədikdə əməliyyat icra edilir. Müəyyən hallarda vəz özü normal olur, fəaliyyəti və ölçüsü normal qalır. Lakin onun üzərində düyünlər yaranır. Bu düyünlər bəzi hallarda xoşxassəli, bəzi hallarda isə bədxassəli törəmə şəklində ola bilər. Düyünlər vaxtında aşkar edilib biopsiya olunduqda bədxassəli törəmənin qarşısını almaq mümkündür. Lakin insanlar biopsiyalardan qorxurlar və gözləyirlər, nəticədə törəmə ağır mərhələyə keçəndə əməliyyat məcburiyyəti yaranır. Bu, doğru deyil, çünki onu vaxtında aşkar etmək lazımdır.

Qalxanabənzər vəzi yalnız sağlam insanlarda deyil, xüsusilə uşaqlarda və hamilə qadınlarda da fəaliyyəti pozularsa, gələcəkdə dölün və uşağın inkişafına mənfi təsir edə bilər. Hamiləlikdə və yaxud ginekologiyada bir qadın hamilə qala bilmirsə, mütləq yoxlanmalar arasında zob da olmalıdır. Tiroid hormonları da yoxlanmalıdır. Müalicə olunduqdan sonra dölün inkişafı normal olur və daim nəzarət altında saxlanılır”.

***Ayşən Vəli***





# Novruzaqədərki adət və mərasimlər: Unudulmağa qoymayaq!

**VIII YAZI**











Xalqımızın çoxəsrlik tarixi qürur duyduğumuz milli-mənəvi dəyərlərlə, adət-ənənələrlə zəngindir. Onların hər birini xalq zaman-zaman yaratmış, qorumuş, nəsildən-nəslə ötürərək günümüzədək gəlib çıxmasına şərait yaratmışdır. Zəngin adətləri, mərasimləri olan Novruz bayramı da illərin sınağından keçmiş, 70 il sovet dövründə yasaq edilmiş, lakin xalqın evində, həyətində və qəlbində yaşatmaqla qoruduğu adət-ənənələrdən biridir.

70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar. Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu Öndərimiz deyirdi: “Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir”.

## Dörd çərşənbə: dünən və bu gün

Vaxt var idi ki, elə ki, kiçik çillə çıxdı, öz yerini boz aya verdimi, Novruzaqədərki çərşənbələrlə yanaşı onların hər birinə məxsus adət-ənənələr də başlayardı. Adına “Yalançı çərşənbə”, “Əzəl çərşənbə” də deyilən Su çərşənbəsi dörd çərşənbənin birincisidir. Onu gəlişi ilə buzlar əriyir, çayların donu açılır, torpaq ağaclarla birlikdə oyanır, hər yer yavaş-yavaş canlanmağa başlayır.

Elə ilk tonqal da bu çərşənbədə çatılardı. Sanki öz istiliyi ilə təbiətin oyanmasına kömək edərdi. Su çərşənbəsində səhər tezdən hər kəs evinə yaxın çay, bulağa gedər, suyun üzərindən atlanıb ağırlığın suya tökər, əl-üzlərini yuyar, evə qayıdarkən çərşənbə suyu gətirər, həyət-bacaya, əkin yerlərinə, toyuq hininə, mal-heyvan saxlanan yerə səpələyərdi ki, il ruzili gəlsin. Həmin sudan dibçək güllərinin də dibinə tökər, evin bəzi yerlərində şüşə qablarda çərşənbə suyu qoyulardı.

Evlərdə şirniyyatlar, yeməklər hazırlanar, axşam bayram süfrəsi açılar, ailə üzvləri süfrə başında toplaşar, şadyanalıqla yeyər-içər, deyib-gülərdi.

Xalq arasında adına “Xəbərçi çərşənbə”, “Üskü çərşənbə” də deyilən Od çərşənbəsinin daxil olması ilə günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində də tonqallar qalayardılar. Hər kəs tonqal başına gələr, tonqalın istisində qışın soyuğunu unudar, deyir-gülər, şənlənərdi.

Od çərşənbəsində evlərdə şirniyyatlar, yeməklər hazırlanar, bayram süfrəsi açılardı. Hər ailə üzvünün adına bir şam yandırılardı. Bayram xonçaları düzəldilərdi.

Qadınlar “Səməni, saxla məni, ildə göyərdərəm səni” deyib buğda isladar, səməni qoyardı ki, torpaq çərşənbəsinə və Novruz bayramına qədər cücərib boy atsın, evləri, süfrələri bəzəsin.

Üçüncü çərşənbə adı Azərbaycanın bir sıra bölgələrində günümüzdə də “Ölü çərşənbə”si (Qara çərşənbə, Gül çərşənbə) kimi səslənən Yel çərşənbəsidir. Həmin gün insanlar yaxınlarının məzarlarını ziyarət edər, qəbirləri qışın palçığından, toz-torpağından təmizləyər, ölənlərin ruhuna dualar oxuyarlar. “Ölü çərşənbə”sində yaslı ailələr də ziyarət olunar, onların yasdan çıxması və qarşıdan gələn bayramı hamı ilə birgə qeyd etmələri təmin olunar.

Yel çərşənbəsinin özü ilə birlikdə gətirdiyi yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yellədir, sanki onlara həyat verməyə can atır.

Yel çərşənbəsində də həyətlərdə tonqal yandırılar. Bayram süfrəsi açılar.

Dördüncüsü çərşənbə Torpaqdır. Suyun təbiətə can verməsi, odun isitməsi, yelin onu yenidən hərarətə gətirməsi ilə ana təbiət oyanır, yeni mövsümə-Bahara qədəm qoymağa hazır olduğunu Torpaq çərşənbəsində sanki bəyan edir. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Adına İlaxır çərşənbə də deyilən Torpaq çərşənbəsi digər çərşənbələrdən fərqli olaraq daha təntənəli keçirilər, özünəməxsus ayin və mərasimləri ilə digər çərşənbələri geridə qoyardı. Bir çox regionlarda İlaxır çərşənbənin təntənəsi Novruzu belə üstələyərdi.

Bu çərşənbə mərasimləri sübh tezdən bulağa, çaya getməklə başlayır. İnsanlar bulaq başına, çay kənarına gələr, oradan su götürər, suyun üstündən atlanar, dərdini, arzusunu suya danışar və sudan dilək diləyərlər. Axır çərşənbənin gecə mərasimləri də dəbdəbəli keçirilir. Tonqallar çatılır, od üstündən tullanılır, uşaqlar qohum-qonşuya üz tutur, evlərə torba atılır, qız-gəlinlər qulaq falına çıxırlar.

Axır çərşənbədə evlərdə gözəl süfrələr açılır, şam yandırılır, xonça düzəldilir. Elobada camaatın gur yığışdığı və yaşadığı yerlərdə yumurta döyüşdürülür, digər xalq oyunları keçirilir. İnsanlar məişətdə və təsərrüfatlarda köklü yeniliklər edirlər.

Qız-gəlinlər bu çərşənbənin gəlişi münasibətilə bir neçə gün əvvəl ev-eşikdə təmizlik işlərinə başlayar. Ev-eşik silinib-təmizlənər, yorğan-döşək gün altına atılar, ev-eşikdə nə varsa suya çəkilər, qapı-baca açıq qoyular, evin havası dəyişilər. Kişilər də həyət-bacada əsaslı işə başlayarlar. Bağbağata əl gəzdirilər, həyət-baca səliqə-sahmana salınar. Bağ-bağatda ağacların qolbudağı budanar, artıq nə varsa yandırılar, ağacların dibi bellənər, əkin-biçin yerlərində torpaq daşlardan təmizlənər, yararlı yerlər əkilər.

## Novruz və Novruz adətləri

Çərşənbələr Novruz bayramını gətirir. Novruz isə ölkəmizdə daha təntənəli qeyd olunur. Dörd çərşənbənin hər birinin adətləri və mərasimləri də daxil olmaqla, böyük bir bayramla Novruz-yeni gün qeyd olunur. Baharın gəlişi təntənəli şəkildə qarşılanır.

Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qız-gəlin təzə çəkmə, qırmızı don geyərdi.

Gəlin, Novruz adətlərinə nəzər salaq, görək ki, bu xalq zaman-zaman bir bayram üçün nə qədər ayin, mərasim həyata keçirib, adət-ənənəni yaşadıb:

-Axır çərşənbədə uşağa beşik düzəldərlər.

-Axır çərşənbədə gün çıxmamış su üstündən atlanarlar.

-Axır çərşənbədə tonqal yandırarlar.

*Ardı Səh. 11*

# Novruzaqədərki adət və mərasimlər: Unudulmağa qoymayaq!

Əvvəli-Səh-10

-Axır çərşənbədə qorxanların başından su tökub qorxuluğu alarlar.
-Axır çərşənbədə kəlin buynuzuna qırmızı bağlarlar.
-Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlarlar.
-Axır çərşənbədə toy üçün ayrılmış qoyunların boynuna qırmızı bağlarlar.
-Axır çərşənbədə evdən pul verməzlər.
-Axır çərşənbədə qonşuya ələk verməzlər.
-Axır çərşənbə günü borc un verməzlər.
-Axır çərşənbə günü şam yandırarlar.
-Axır çərşənbə günü şamı yarımçıq söndürməzlər.
-Axır çərşənbə günü ailə üzvlərinin sayına görə şam yandırarlar.



dı? Kim əzizlərinin məzarını ziyarət üçün ata yurduna yollandı, zaman icazə vermədi? Kim ata-anası ilə bayramlaşmaq üçün rayona yollandı, zaman “getmə”,- dedi. Kim böyük şəhərlərdə yaşasa da, evində bu adətləri həyata keçirmək istədi, zaman mane oldu?

Son illər çərşənbələrdə süfrə açmağı təxirə salmışıq. Qapılara uşaqlar papaq-torba atır, qapılarsa onların üzünə bağlıdır. Açılmır, açmırlar qapıları. Səməni satın alınır, çünki onu cücərtməyə ərinən qadınlar var. Novruzda qırmızı geyinən də ta yoxdur. Ailə üzvlərinə təzə paltar almaq çoxdan unudulub. Şəhərləri qoyaq bir kənara, deyən olar ki, burada imkanlar bir o qədər geniş deyil, indi çərşənbələrin hamısında heç kəndlərdə də tonqal qalanmır, süfrələr açılmır, hər çərşənbənin öz adəti yerinə yetirilmir.





-Axır çərşənbə günü evdən od, kibrit, neft verməzlər.
-Axır çərşənbə günü evdən ağartı verməzlər.
-Axır çərşənbə günü zahı üstünə getməzlər.
-Axır çərşənbə günü evdən çörək verməzlər.
-Axır çərşənbə gecəsi tez yatmazlar.
-Axır çərşənbə gecəsi evdə qazan asarlar.
-Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamları yada salarlar.
-Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamların adını çəkib ”filankəslərin adına qazan asdım” deyib qazana bişmək üçün ət, yaxud düyü və s. tökərlər.
-Axır çərşənbə günü ertədən lampa yandırarlar.
-Novruza hazırlıq görərlər.
-Novruzda həyət-bacanı təmizləyərlər.
-Novruzda evləri şirələyər, paltar-palazı təmiz suya çəkərlər.
-Novruza qədər ağacların dibini bellərlər.
-Novruza qədər ağacların quru budaqlarını kəsib atarlar.
-Novruzda səməni göyərdərlər.
-Novruzda unnuq çəkərlər.
-Novruzda səməni halvası bişirərlər.
-Novruzda niyyət eləyərlər.
-Novruzda Novruz süfrəsi açarlar.
-Novruzda tonqal yandırarlar.
-Novruzda üzərrik yandırıb tüstüsünü malqaraya, oğul-uşağa, ev-eşiyə verərlər.
-Novruzda təzə paltar alarlar.
-Novruzda qız-gəlini təzə donla sevindirərlər.
-Novruzda ox atmağa hazırlaşarlar.
-Novruzda at çapmağa tədarük görərlər.
-Novruzda şənliklərə gedərlər.
-Novruzda Novruz xonçası bəzəyərlər.
-Novruzda yumurta boyayarlar.
-Novruzda qəmgin oturmazlar.
-Novruzda Novruz süfrəsi açarlar.
-Novruzda noğul, şəkər düzəldib süfrəyə qoyarlar.
-Novruzda qoz, fındıq alar, xonçaya və ya süfrəyə qoz ləpəsi ilə armud qaxı qoyarlar.
-Novruzda səməni göyərtmək düşməyən evə səməni apararlar.
-Novruzda damlarda çalğı düzəldərlər.
-Novruzda qız seçməyə çıxarlar.
-Novruzda qıza mətləb açarlar.
-Novruzda təzə paltar geyinərlər.
-Novruzda küsülü qalmazlar.
-Novruzda qohum-qardaş yığışıb qonaq gedərlər.
-Novruzda nişanlı qıza bayram payı apararlar.
-Novruzda söyüş söyməzlər.
-Novruz axşamı qarğış eləməzlər.
-Novruz günü ata-ananın qəbrini ziyarət edərlər.
-Novruz axşamı evdə ailə üzvlərinin sayına görə şam yandırarlar.
-Novruzda qeybət qırmazlar.
-Novruzda qohum-qardaşa, tanış-bilişə mehribanlıq eləyərlər.
-Novruz günü alver eləməzlər.
-Novruz günü başqası barədə pis söz danışmazlar.
-Novruzda şirni paylarlar.
-Novruzda atı-iti vurmazlar.
-Novruz günü mollaya getməzlər.
-Novruz günü dua yazdırmazlar.
-Novruz günü evə nərgiz gətirməzlər.
-Novruz günü evdə nərgiz qoymazlar.
-Novruz günü novruzgülü dərərlər.
-Novruz günü təzə yarpız yığarlar.
-Novruz günü ilanı vurmazlar.
-Novruz günü qızlar qırmızı geyinərlər.
-Novruz günü evin sahibi evdə olar.
-Novruz günü sağmal mal-qaranı oxşayarlar.
-Novruz günü dalaşmazlar.
-Novruz axşamı bacadan sallanan torbaya pay qoyarlar.
-Novruz axşamı qapıya atılan papağı boş qaytarmazlar, ona Novruz xonçasından pay qoyarlar.



-Novruz günü xəstə yatanlara pay göndərərlər.
-Novruz günü elin ağsaqqallarına Novruz şirniyyatı göndərərlər.
-Novruzqabağı qovurğa bişirərlər.
-Novruzqabağı xonça tutarlar.
-Novruzqabağı tüfəngləri silib təmizləyərlər.
-Novruzqabağı yumurta bəzəyərlər.
-Novruzqabağı Novruz şənlikləri düzəldərlər.

Bu adətlərin hər biri bu bayramı hələ İslam dinindən xeyli əvvəl yaratmış xalqın mədəniyyətini, insani hisslərini, təfəkkürünü ortaya qoyur. Və bütün bu adətlər bir daha onu göstərir ki, həqiqətən də Novruz və onu gətirən dörd çərşənbə Azərbaycan xalqı üçün əziz və müqəddəsdir.

## Bəs bu adətlərdən indi nə qalıb?..

Çox təəssüf hissi ilə qeyd edək ki, indi küçədə bir sorğu aparsaq, çərşənbələri ardıcıl şəkildə saya bilən az adam tapılar. Və onların adını belə bilməyən insan çərşənbələrə məxsus adətləri haradan həyata keçirəcək?..

Təəssüfedici haldır ki, illər öncəki çərşənbələrdən və Novruzdan çox az bir şey qalıb. Müasir dövrdə yeni-yeni bayramlar, əyləncələr çıxıb meydana. Xüsusilə əksər gənc internet dünyasındadır və çərşənbələrlə, Novruzla bağlı adətlərin nə olduğunu bilmir.

Elə bilənlər də son zamanlar bildiyini unudub. Bəzən günahı zamanın çiyinlərinə qoyuruq, lakin günahkar özümüzük, zaman buna nə etsin? Kim bayramı öz kəndində, elində, həyətində qeyd etmək üçün yollanmaq istədi, zaman əlini qabağa verib qoyma-

İndi tək İlaxır çərşənbədə və Novruz bayramı günü bayram əhval-ruhiyyəsi hiss olunur. Bayram tətilində isə kəndlərə getmək, valideynlərlə bayramlaşmaq əvəzinə, ölkədaxili və xarici ölkələrə səfərlərə çıxırıq. Valideynlərimizlə “onlayn” bayramlaşırıq. Təbrik edirik və borcumuzu bitmiş hesab edirik. Lakin unuduruq ki, onların bu əziz günlərdə gözləri yolda qalır, övladlarını gözləyirlər. Onlar özləri valideynlərini Novruzda heç vaxt tək qoymadıqları, bir yaylıq, bir corabla onların könlünü şad etdikləri üçün öz övladlarından da bunu gözləyir.

Bizsə, adət-ənənə nədir, onu çoxdan unutmağa başlamışıq. Birini edəndə, o biri yadımızdan çıxır. Həyatımızı internetin, sosial şəbəkələrin əsirliyinə vermişik. Videozənglər bizim valideyn ziyarətimiz olub. O yaşlı insanlarla çox vaxt telefon arxasından görüşürük. Yaxın qohumlarımız dünyadan köçəndə başsağlığını da telefonla veririk. Eləcə də Novruz bayramı və Novruzaqədərki çərşənbələrdə də olan adətlər, mərasimlər unudulub getməkdədir. İndi nə Novruzda küsülülər barışır, nə də bunun böyük əhəmiyyəti olduğunu dərk edir. Övladların ata-anasının məzarını ziyarət etmək üçün harada yaşamasından asılı olmayaraq Novruz ərəfəsi rayona üz tutması indi bir təsadüf ola bilər.

Yuxarıda Novruz adətlərini sadalamaqla yaddaşımızın korşalmış hissəni yeniləmək istədim. Hər birimiz bu adətlərə nəzər salaq. Görək bunlardan neçəsini edirik, neçəsini unutmuşuq. Lakin bir məsələni unutmayaq ki, bunların hər biri bizim milli dəyərlər toplusunun bir hissəsini təşkil edir. İndi alimlər ortalığa çıxıb Novruz adətləri ilə bağlı yenilik gətirmək istəyir, qulaq falına çıxmağı evləri dinləmək hesab edir. Yumurta boyamağı əhəmiyyətsiz hesab edirlər.Gəlin bu adətləri olduğu kimi mənimsəyərək onlara qarşı çıxaq. İrili-xırdalı bir adətimizin belə aradan çıxmasına, ona ağılsız yanaşmalara yol verməyək.

Bunları unutmaq günahdır. Unutmağa bizim haqqımız yoxdur.

***Mətanət Məmmədova***

# Sülh üçün 3 şərt

## "Ukrayna mənim məsləhətlərimə əməl etsəydi, bu gün ölkə bütöv olardı" - Con Mearsheimer

***“Le Figaro” Con Mearsheimerə istinadən xəbər verir ki, Tramp üç şərt yerinə yetirildiyi təqdirdə Ukraynada atəşkəs sazişi imzalayacaq. Ukrayna Qərbdən təhlükəsizlik zəmanəti almadan neytral olmalı, ərazisinin əhəmiyyətli hissəsini verməli və silahsızlaşdırılmış dövlətə çevrilməlidir. Amerikalı siyasi elmlər professoru Qərbin Ukraynadakı vəziyyətə görə məsuliyyət daşıdığını qeyd edib. Onun bu fikrini Donald Trampın mövqeyi və Vladimir Putinin son bəyanatları dəstəkləyir. Son iki müsahibəsində Mearsheimer mövcud vəziyyətlə bağlı təhlilini təkrarlayır.***






“Ukraynadakı vəziyyətə görə Qərb məsuliyyət daşıyır”. Bu sözləri hələ 2015-ci ildə Çikaqo Universitetinin politologiya professoru Con Mearsheimer demişdi. On il sonra, “The New Yorker” qəzetinə verdiyi son müsahibədə tez-tez adı çəkilən ziyalı Rusiyanın xüsusi hərbi əməliyyatını “proqnozlaşdıran” öz fikrində dayanır: “Biz Putini Ukraynanın NATO-ya üzv olmasının qarşısını almaq üçün qabaqlayıcı müharibəyə başlamağa məcbur etdik”.

Uzun müddətdir ki, Mearsheimer bu cür ritorikaya sadiq qalan bir neçə nəfərdən biri idi, lakin indi onun Donald Tramp kimi güclü tərəfdarı var. Professor ”Trampın etdikləri ilə ümumi razıyam” deyib, ”Mən hesab edirəm ki, münaqişəni dərhal bitirmək strateji baxımdan ağıllıdır. Mən də bunu mənəvi cəhətdən düzgün addım hesab edirəm. Və Tramp bunu ən incə şəkildə etməsə də, mən onun doğru yolda olduğunu düşünürəm və ümid edirəm ki, o, ora çatacaq”.

### Mübahisəli bəyanatlar

Bu, Mearsheimerin siyasi cəhətdən düzgün olmayan və Qərbin qulaqları üçün ağrılı bəyanatlar sahəsində ilk təcrübəsi deyil. Hələ 1990-cı ildə dünya Soyuq Müharibənin bitməsini qeyd edərkən o, yüksək səslə bəyan etmişdi ki, beynəlxalq münasibətlər böhranlar və şiddətli güc mübarizəsi ilə yadda qalacaq. 2006-cı ildə o, İsrailə maddi dəstəyi təmin etmək üçün Amerika siyasətinə təsir göstərdiyi iddia edilən təşkilatlar şəbəkəsinin təhlili olan ”İsrail Lobbisi”ni nəşr etdi. Onun fikrincə, ABŞ-ın strateji maraqları bahasına gəlir.

Mearsheimer uzun müddətdir ki, öz mövqeyini müdafiə edir. O, onu Maydandakı hadisələrdən, Yanukoviçin qaçmasından əvvəl, milli azlıqların dilləri ilə bağlı referendumlardan, Krımın Rusiyaya ilhaqı ilə bağlı referendumdan və ya Donetsk və Luqansk respublikalarındakı iğtişaşlardan əvvəl işğal edib. Onun tezisi belədir: hər şey 2008-ci il aprelin 3-də Buxarestdə, NATO sammitində başladı. Həmin gün aşağıdakı bəyanat verildi: “Biz, Şimali Atlantika Alyansının Dövlət və Hökumət Başçıları, bu gün Alyansımızın üzvlüyünü genişləndirmək və XXI əsrə qarşı mövcud və yaranan təhlükəsizlik təhdidlərini aradan qaldırmaq qabiliyyətimizi daha da gücləndirmək üçün bir araya gəldik”. Daha sonra 23-cü bənddə deyilir: ”NATO Ukrayna və Gürcüstanın NATO-ya üzvlüklə bağlı Avro-Atlantik istəklərini alqışlayır. Bu gün biz bu ölkələrin NATO-ya üzv olacağı barədə razılığa gəldik”.

### Co Baydenin münaqişənin başlanması məsuliyyəti

Yuxarıdakı mətn 2008-ci il martın sonunda prezident seçkilərində yenicə qalib gəlmiş Dmitri Medvedevin Financial Times qəzetinə verdiyi müsahibədə dərc etdiyi bəyanatdan bir neçə gün sonra ortaya çıxdı: ”Gürcüstan və Ukrayna ətrafındakı vəziyyət bizi sevindirmir. Biz bunu Avropa təhlükəsizliyinin mövcud strukturu üçün son dərəcə xoşagəlməz hesab edirik. Onun sərhədinə yaxınlaşmada hərbçilərin iştirak etməməsindən heç bir dövlət həzz ala bilməz”. Daha sonra 2014-cü ilin əvvəlində baş verən hadisələr Donbassda 2022-ci ilə qədər davam edən gizli müharibəyə və silahlı qarşıdurmaya səbəb oldu. Mearsheimerin dediyinə görə, Co Baydenin təhrik etdiyi münaqişə: ”O, ölkəni sələfindən daha aqressiv şəkildə silahlandırmağa başladı. Nəticədə, Ağ Evə gələndən 13 ay sonra o, müharibəyə başladı.”

Tez-tez Rusiya təbliğatının kuklası olmaqda günahlandırılan Mearsheimer “Der Spiegel”ə müsahibəsində əslində “Ukraynaya çox bağlı olduğunu” açıqlayır. Və əlavə edir: ”Mən onun məhv edilməsini istəmirəm. Buna görə də 1990-cı illərin əvvəllərində mən Ukraynanın nüvə silahını saxlamasını müdafiə etdim və illər boyu onun heç bir halda NATO-ya üzv olmağa çalışmaması üçün təkid etdim. Əgər ukraynalılar mənim məsləhətlərimə əməl etsəydilər, bu gün Ukrayna bütöv olardı”.

Bəs Avropa? ”Prezident Tramp və vitse-prezident Vens avropalılara xor baxır,” deyə o, bir alman jurnalına deyir: ”J.D.Vensin Münhen konfransındakı çıxışı diqqətlə planlaşdırılıb və avropalıları aşağılamaq və onların yerinə qoymaq məqsədi daşıyırdı. Əminəm ki, Vens bu prosesdə əsas rol oynayıb. O, uzun müddətdir ki, ABŞ-dakı münaqişəni dayandırmağa və Avropadakı mövcudluğu əhəmiyyətli dərəcədə azaltmağa çalışır”.



Mearsheimer nədən təəssüflənir: ”Amerikalılar açıq şəkildə bildirdilər ki, Avropa Çinlə müəyyən işlər görməməlidir. Xüsusilə, qabaqcıl texnologiyanı Çinlilərlə paylaşmamalıdır. Amerikalılar Avropanı tərk etsələr, biz bu əsas məsələdə Avropa üzərində təsirimizi itirəcəyik. Düşünürəm ki, Tramp Avropa institutlarını aşağılamaqla və müttəfiqlərinə hörmətsizliklə yanaşmaqla səhv edir”.

### Avropada birlik “ilğım”ı

Mearsheimer ABŞ-ın Köhnə Dünyanı tərk edəcəyi təqdirdə Avropanın mümkün birləşməsi ümidlərini də şərh edir: ”Aİ-yə üzv dövlətlərin həm ümumi, həm də fərqli maraqları var. Nə qədər ki, avropalılar amerikalıların sükan arxasında olduğu bir dünyada inkişaf edir, onlar əsasən amerikalıların istədiyini edirlər və sonra Avropanı vahid dövlət kimi görürlər. Amma bu, bir ilğımdır”.

Amerikalılar hazırda sülh danışıqlarının sürətini müəyyənləşdirir, Donald Trampın xüsusi elçisi Steve Witkoff 30 günlük atəşkəs üçün Amerika planını təqdim etmək üçün cümə axşamı, martın 13-də Moskvaya səfər etdi. Bu fonda Mearsheimer hesab edir ki, Amerika prezidenti yalnız üç şərt yerinə yetirildiyi təqdirdə sazişi imzalaya bilər. Birincisi, Ukrayna NATO-ya qoşulmadan və ya Qərbin təhlükəsizlik zəmanəti almadan neytral qalmalıdır; ikincisi, şərqdəki ərazisinin əhəmiyyətli hissəsinin verilməsinə razılıq verməlidir; Üçüncüsü, o, artıq Rusiya üçün təhlükə yaratmamaq üçün silahsızlaşdırılmış dövlətə çevrilməlidir. Bu şərtlər Vladimir Putinin cümə axşamı Amerikanın təklifi ilə bağlı qeyd etdiyi “nüanslari” təkrarlayır. ”Tramp bu şərtləri qəbul etməli və ruslarla razılığa gəlməlidir”, - professor hesab edir, ”ancaq ən çətini avropalıların və hər şeydən əvvəl ukraynalıların razılığını almaq olacaq”. Bəs Putinin Ukraynadan kənardakı ambisiyaları ilə bağlı Avropanın narahatçılığı? ”Putin Şərqi və xüsusilə Qərbi Avropanın digər ölkələrini demirəm, bütün Ukraynanı fəth etmək iqtidarında deyil. Onun ordusu Ukraynanın şərqini işğal etmək üçün üç ildir ki, döyüşür”.

Son üç ildə baş verən hadisələrə baxmayaraq, Con Mearsheimer son dərəcə qeyri-populyar mövqeyinə sadiq qalmaqda davam edir. Önümüzdəki aylar göstərəcək ki, Tarix onun haqlı olduğunu sübut edəcək, yoxsa bəzilərinin hesab etdiyi kimi, onun təhlili sadəcə olaraq hadisələrin dinamikasını qərəzli və seçmə oxumağın nəticəsidir. “Sovet İttifaqının dağıldığı 1991-ci ildən Trampın ilk andiçmə mərasiminə qədər təxminən davam edən “birqütblü an” zamanı bir çoxları mənim dinozavr olduğumu iddia edirdi”, o, “Mənim realist fikirlərim, o zamanlar deyirdilər ki, bu gün hələ də aktual deyil. yaxşı və yaxşı.”

**V.VƏLİYEV**

RAKURS

# "Multikulturalizm bu gün dünyada fərqli səviyyələrdə inkişaf edir"

*"Multikulturalizm bu gün dünyada fərqli səviyyələrdə inkişaf edir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, "Hacı Cavad" məscidinin imamı, fəlsəfə üzrə fəlsəfə doktoru İbrahim Quliyev deyib. O bildirib ki, multikulturalizm regiondan asılı olaraq müxtəlif çətinliklərlə üzləşir: "Ümumilikdə, aşağıdakı tendensiyalar müşahidə olunur:*



AYDINLIQ GƏTİRİLDİ

**1.** Qlobal Perspektivdə Multikulturalizm

Qərb ölkələri – Avropa və Şimali Amerikada multikulturalizm siyasətləri fərqli nəticələr verib. Məsələn, Kanada və Avstraliya bu konsepsiyanı uğurla tətbiq edir, lakin bəzi Avropa ölkələrində (Fransa, Almaniya, Böyük Britaniya) miqrasiya problemləri və sosial inteqrasiya məsələləri çətinliklər yaradır.

Asiya və Yaxın Şərq – Bəzi Asiya ölkələrində (məsələn, Sinqapur, Hindistan) multikulturalizm rəsmən dəstəklənsə də, müəyyən dini və etnik qarşıdurmalar baş verir. Yaxın Şərqdə isə multikulturalizm çox vaxt siyasi və dini ziddiyyətlərə görə çətinliklərlə qarşılaşır.

Afrika və Latın Amerikası – Etnik müxtəliflik yüksək olsa da, bəzi bölgələrdə bu fərqlilik sosial və iqtisadi problemlərə səbəb olur.

**2. Azərbaycan və Multikulturalizm**

Azərbaycan multikulturalizmi dövlət səviyyəsində dəstəkləyən ölkələrdən biridir. Azərbaycan modelində: Müxtəlif etnik və dini icmalar arasında sülh və əməkdaşlıq mövcuddur.

"Bakı Prosesi" kimi beynəlxalq təşəbbüslərlə qlobal multikulturalizmə töhfə verilir. Prezident İlham Əliyevin siyasətində multikulturalizm önəmli yer tutur və Azərbaycan bu sahədə nümunəvi ölkələrdən biri hesab olunur.

**3. Multikulturalizmin Qarşılaşdığı Çətinliklər**

İnteqrasiya problemləri – Miqrant icmalar bəzi cəmiyyətlərdə sosial, mədəni və iqtisadi maneələrlə üzləşir.

Radikalizm və ayrı-seçkilik – Bəzi ölkələrdə multikulturalizmə qarşı populist siyasətlərin artması bu ideyanın sarsılmasına səbəb ola bilər.

Qloballaşma və milli kimlik – Bəzi cəmiyyətlər multikulturalizmi milli dəyərlərə təhdid kimi görür.

**4. Gələcək Perspektivlər**

Multikulturalizmin inkişafı üçün effektiv inteqrasiya siyasətləri, təhsil proqramları və sosial layihələr vacibdir. Süni intellekt və rəqəmsal texnologiyalar da mədəni müxtəlifliyin təşviqində mühüm rol oynaya bilər.

Ümumilikdə, multikulturalizm bu gün müxtəlif ölkələrdə fərqli formada tətbiq olunur və uğuru əsasən sosial və siyasi yanaşmalardan asılıdır. Sizin konkret bir ölkə və ya region haqqında sualınız varsa, daha dəqiq analiz edə bilərəm.

### Multikulturalizmlə bağlı ölkəmizdə hansı siyasət həyata keçirilir?

Azərbaycan multikulturalizmi dövlət siyasətinin əsas istiqamətlərindən biridir və bu sahədə bir sıra mühüm addımlar atılıb. Ölkədə multikulturalizmin inkişafı üçün hüquqi baza yaradılıb, elmi tədqiqatlar aparılır və müxtəlif beynəlxalq təşəbbüslər irəli sürülür.



**1. Multikulturalizm Siyasətinin Əsas Prinsipləri**

Dini və etnik müxtəlifliyin qorunması – Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Ölkədə yaşayan müxtəlif xalqlar və dini icmalar sülh və qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərir. Dövlət dəstəyi və qanunvericilik bazası – Azərbaycan Respublikasının Konstitusiyası və qanunları bütün vətəndaşların hüquq bərabərliyini təmin edir. Ölkədə dini tolerantlıq və multikulturalizm dövlət səviyyəsində qorunur.

Təhsil və elmi araşdırmalar – Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və digər ali məktəblərdə multikulturalizm fənni tədris olunur.

Beynəlxalq əməkdaşlıq – Azərbaycan dünyada multikulturalizm ideyasının təbliğinə töhfə vermək üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edir.

**2. Multikulturalizmə Dəstək Verən Qurumlar və Layihələr**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) – 2014-cü ildə yaradılıb və əsas məqsədi ölkədə və dünyada multikultural dəyərləri təbliğ etməkdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi – Dini icmaların fəaliyyətini tənzimləyir və onların inkişafına dəstək göstərir. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) – Multikulturalizm mövzusunda tədqiqatlar aparır.

Bakı Prosesi – 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülüb və Avropa ilə İslam dünyası arasında dialoqu gücləndirmək məqsədi daşıyır.

**3. Multikulturalizmə Dair Siyasi Təşəbbüslər**

2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi – Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub və bu çərçivədə bir sıra tədbirlər həyata keçirilib.

Multikulturalizmin universitetlərdə tədrisi – Azərbaycanın müxtəlif ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur və bu fənn bir sıra xarici universitetlərdə də öyrədilir. Dini və etnik azlıqlara dəstək – Azərbaycanda yaşayan müxtəlif dini və etnik icmalara dövlət tərəfindən maliyyə yardımları göstərilir, onların mədəniyyətini qorumaq üçün müxtəlif layihələr həyata keçirilir.

**4. Multikulturalizmin Gələcək İnkişafı Üçün Addımlar**

Gənclərin maarifləndirilməsi – Multikultural dəyərlərin gənclər arasında daha geniş təbliğ edilməsi üçün yeni proqramlar həyata keçirilə bilər. Beynəlxalq arenada təşviq – Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığı daha da genişləndirə bilər.

Rəqəmsal multikulturalizm platformalarının yaradılması – Multikulturalizm və dini tolerantlıq mövzusunda onlayn resursların və təhsil proqramlarının inkişafı mümkündür. Ümumiyyətlə, Azərbaycan multikulturalizm siyasətini aktiv şəkildə həyata keçirir və bu sahədə həm yerli, həm də beynəlxalq səviyyədə nümunəvi ölkələrdən biri hesab olunur".

***Söylü Ağazadə***

# "Biz indi o qədər sosiallaşırıq ki, bütün adətlər unudulur"





"Əvvəl insanlar bir-birilərinin evlərinə qonaq gedərdilər, indi isə görüntülü yığırlar". Bu sözləri SİA-ya açıqlamasında jurnalist, ekspert Ağa Dadaşzadə deyib. Onun sözlərinə görə, əvvəllər Novruz bayramında qohumlar yığışıb şəkərbura, paxlava, qoğal bişirirdilər. Bu simvolik adətlər insanı xoşbəxt edən və ruhlandıran məqamlardan biridir: "Biz indi o qədər sosiallaşırıq ki, bütün bu adətlər unudulur. Əslində bu bir faciədir. Məsələn, türk dünyasının tanınmış ölkələrindən biri Özbəkistan hələ də öz milli geyimini qoruyub saxlayıb. Qırğızıstan olsun Tacikistan olsun. Amma Azərbaycanda bizim milli geyimlərimiz nədir? Çaları nədir? İnanın ki, bunu əksəriyyəti bilmir. Həmçinin Novruz insanları birləşdirən, onları bir ocaq başına toplayan bayramdır. Novruz bayramı yeni il deməkdir. Yeni ildə də yeni arzular, yeni hədəflər, müqəddəs duyğular işə düşür. Çox təəssüfki, biz bunu unuduruq.

O ki, qaldı şəkərburanın, paxlavanın bişirilməsinə hamı rahatlıq istəyir. "Hazır var gedərəm alaram" deyə insanlar düşünür. İnanın səmimiyyətimə 2 ildən sonra Novruz bayramını heç bir insan qeyd etməyəcək. Amma bunun da mənfi tərəfləri ondan ibarətdir ki, insanlar bir-birindən uzaq düşürlər, doğmalar uzaq düşürlər. İnsanlar bir-birindən uzaqlaşdıqca sevgi, məhəbbət, dostluq, qayğı hamısı itir. Sizi əmin edirəm ki, bundan haradasa 2 il sonra Novruz bayramı ümumiyyətlə yaddan çıxacaq. Artıq zaman keçdikcə tamamilə yadlaşacayıq. Biz konkret olaraq texnologiya dünyasının əsirinə çevrilmişik və rəsmən biz texnologiya əsirinin köləsi olacayıq".

***Qumral Əlizadə***

# "Amerikanın səsi"nin bağlanması ilə Əli Kərimlinin də "səsi" batdı




***Azərbaycan hüquqi dövlətdir və atılan addımlar, verilən qərarlar qanunun aliliyinə söykənir. Kimsə deyə bilməz ki, filan vaxtı filan yerdə, filan problemlə üzləşib və bu zaman hüquqları pozulub. Yoxdur belə bir fakt. Hansısa şəxsdə və ya ictimai, siyasi təşkilatda varsa belə bir fakt buyurub ictimaiyyətə təqdim etsin. Məhz Azərbaycanın sabitlik adası olması, istənilən məsələnin hüquqi formada həll edilməsi yerli və xarici qüvvələri ciddi narahat edir. AŞPA, Avropa İttifaqı, eləcə də Almaniya və Fransa kimi dövlətlərdə və beynəlxalq təşkilatlar da kök salan ertmənipərəst yırtıcılar möhtəşəm uğurlarına kölgə salmaq, beynəlxalq aləmdə qazandığı nüfuzuna zərbə vurmaq üçün hər cür vasitə və üsullardan istifadə edirlər. Bu azmış kimi sözügedən ölkələr və beynəlxalq təşkilatların erməni təəssübkeşləri maliyyə imkanlarına arxalanıb Bakıdakı təmsilçilərini də öz məkrli tezislərini gündəmə çıxarıb, sosial şəbəkələrdə və media müzakirələrində yaymağa təhrik edirlər. Sözə və ələbaxan funksiyasını yerinə yetirən "Milli Şura"-nın, AXCP-nin və Müsavatın rəhbərliyi, elə əlləri azərbaycanlıların qanına batmış uşaq qatilləri olan Koçaryan, Sarkisyan, Ohanyan və digər erməni revanşistləri sayağı fikirlər səsləndirirlər. Deyir ki, guya Azərbaycanda "İnsan haqları" pozulur, "demokratiya yoxdur", bəzən də iddia edir ki, Azərbaycanda "siyasi məhbuslar var".***

Hətta AXCP sədri Əli Kərimli bildirir ki, guya Azərbaycanda 350 "siyasi məhbus" var. Lakin o "siyasi məhbus"lar kimlərdir, adları nədir, hüquq-mühafizə orqanları tərəfindən saxlanma səbəbləri nədən ibarətdir? Bu kimi vacib məsələləri deyə bilmir. Bu isə onu təsdiq edir ki, Ə.Kərimli yalan statistika açıqlayır. Sadəcə ona yalan xarakterli "siyahı" hazırlayaraq beynəlxalq təşkilatlara göndərmək tapşırığı verilib və o da tapşırıqlara boyun əyir. Digər tərəfdən Ə.Kərimli, C.Həsənli və digər trollar Azərbaycanda "demokratiya yoxdur", "insan hüquqları" pozulur və digər bu kimi absurd iddialarla çıxış edirlər. Hətta Ə.Kərimli özünün sosial şəbəkə hesabında yazdığı paylaşımında qeyd edir ki, "Avropa və ABŞ insanların daha ləyaqətlə yaşadığı, azad, demokratik bölgələrdir".

### Əli Kərimli və Cəmil Həsənli "Amerikanın səsi"nin və " Azadlıq" radiolarının bağlanması ilə informasiya dəstəyindən məhrum oldular

Təbii ki, Ə.Kərimli anormal fikirlərini sosial şəbəkə hesabında yazarkən Avropa və ABŞ-da insan azadlıqlarının kobud şəkildə pozulması barədə yayımlanan hesabatları görmək, danışılanları eşitmək istəməyib. Çünki, insan hüquqlarının pozulduğu yerlərdən ona maddi və mənəvi yardımlar gəlir. Ona görə də, Ə.Kərimli susmağa və baş verən rüsvayçılıqları sakit şəkil də izləməyə məcbur olub. Lakin anlamır ki, hər gün Almaniyada 3 minə yaxın cinayət hadisəsi baş verir ki, həmin cinayətlərində yarısı bu ölkəyə gələn insanlara qarşı törədilən cinayətlərdir. Gəlmələrə qarşı törədilən cinayətlərin heç biri açılmır. Cinayətkarın tapılıb məsuliyyətə cəlb olunması ilə bağlı formal axtarışlar verilsə də, nəticənin sonu olmur. Bəzi hallarda polis axtarışda olan cinayətkarı görür və ya onun harada olması haqqında məlumat əldə edir, lakin vəzifə borcunu yerinə yetirməkdən imtina edir. Makronun rəhbərlik etdiyi Fransa adlı "xalqlar həbsxanasında" hər gün 110-115 nəfər polisin zorakılığının qurbanı olur. E.Makrona bağlı cinayətkar dəstələr gecələr başlarına maskalar geyinib, evlərə basqın edir və hakimiyyətə qarşı müxalif fikirlər söyləyənləri döyür, söyür, bəzi hallarda qadınları zorlayırlar. Beynəlxalq təşkilat olan "Human Rigts Watch" özündə cəsarət taparaq bəlkə də fəaliyyəti dövründən ilk dəfə olaraq ağalarından biri olan Fransanın hakim zümrəsini ittiham edən açıqlama ilə çıxış edib. Təşkilatın 2024-cü il hesabatında qeyd olunur ki, "Sarı jiletlilər" hərəkatından sonra Fransada insan azadlıqları pisləşib və bu zaman 126 minə yaxın fransalı qanunsuz olaraq həbs edilib, döyülüb, müxtəlif işgəncələrə məruz qalıb. ABŞ-da da vəziyyət heç də Avropada baş verənlərdən geri qalmır. Xüsusilə də D.Tramp hakimiyyətə gəldikdən sonra Amerika vətəndaşlarının vəziyyəti daha da ağırlaşıb. Düzdür, D.Tramp bir sıra qərarları ilə özü haqqında müsbət imic formalaşdırmağı da bacarıb, baxmayaraq ki, onun bəzi qərarları, imzaladığı qanunlar söz və plüralizmin pozulması kimi qiymətləndirilir. Lakin "dəlidən ağıllı xəbər" məsəli Trampın "Amerikanın səsi", " Azadlıq" radioları kimi şeytan yuvalarını bağlamaqla özünü göstərdi. Tramp qərarı ilə




dünyanın müxtəlif bölgələrində yalan və böhtanlarını "Amerikanın səsi", " Azadlıq" radioları kimi təxribat maşınları vasitəsi yayan Ə.Kərimli, Cəmil Həsənli kimi düşüncə daşıyıcılarını "qol-qanaddan" məhrum etdi. Bundan sonra onlara "yazıq və bədbəxtlər" demək olar . Çünki USAİD-in bağlanması ilə maliyyə dəstəyindən məhrum olunan Ə.Kərimli, Cəmil Həsənli və digərləri bu yandan "Amerikanın səsi", " Azadlıq" radioları kimi şeytan yuvalarının bağlanması ilə informasiya dəstəyini itirmiş olurlar.

### "Amerikanın səsi" və "Azadlıq" radioları ilk növbədə İlon Maskın qəzəbinə tuş gəldilər

ABŞ Prezidenti Donald Tramp bir sıra qeyd etdiyimiz kimi müsbət qərarlar qəbul etməkdədir. Onlardan biri də əsas təxribat maşınları hesab olunan "Amerikanın səsi" və " Azadlıq" radiolarının bağlanması qərarıdır. D.Tramp ABŞ Qlobal Media Agentliyini (USAGM) ləğv etmək əmrindən sonra "Amerikanın səsi" və "Azadlıq" radiosu fəaliyyətini dayandırıblar. "Amerikanın səsi"nin direktoru Maykl Abramovitsin sözlərinə görə, "Trampın qərarından sonra radiostansiyanın 1 300-dən çox əməkdaşını məzuniyyətə yollayıblar". ABŞ-nin keçmiş Milli Kəşfiyyat direktoru Rik Qrenell "Amerikanın Səsi" və "Azadlıq Radiosu"nu qərəzlilikdə ittiham edərək bu media platformaların radikal solçuların meydanına çevrildiyini iddia edib. Amerikalı milyarder İlon Mask dövlət tərəfindən maliyyələşdirilən "Amerikanın Səsi" (Voice of America) və "Azadlıq Radiosu" (Radio Free Europe/Radio Liberty) media layihələrinin bağlanmasını dəstəkləyib.

O, ABŞ-ın keçmiş Milli Kəşfiyyat direktoru Rik Qrenellin bu mətbu orqanları "keçmişin qalığı" və "ultrasol aktivistlərlə dolu" adlandırdığı paylaşımına haqq qazandıraraq yazıb: "Bəli, onları bağlayın. Avropa artıq azaddır, bu KİV-i heç kim dinləmir və onlar "amerikalı vergiödəyicilərinin cibindən ildə 1 milyard dollar yeyirlər".

Qeyd edək ki, "Azadlıq" və "Amerikanın səsi" radiostansiyaları üçün xərclənən illik vəsait 750 milyon dollardır. Lakin bu vəsaitin qarşısında bu media qurumları qeyri-obyektiv informasiya verirlər. Dəfələrlə Azərbaycana qarşı təxribat xarakterli, yalan və böhtan dolu məlumatlar paylaşıblar. Azad və demokratik şəraitdə keçirilən seçkilərlə bağlı sözügedən bu media qurumları erməni maraqlarına uyğun informasiyalar paylaşıblar. 44 günlük Vətən Müharibəsi zamanı "Amerikanın səsi" və "Azadlıq" radioları işğalçı və terrorçu dövlət olan Ermənistanın şər və böhtanlarını böyük həvəslə yayırdı.

Azərbaycanın ayrılmaz hissəsi olan tarixi torpaqlarımızda kök salan erməni separatçılarının terror əməllərini dəstəkləyən reportajlar tirajlayır, Azərbaycan dövlətinə qarşı



əsassız ittihamlar irəli sürürdülər. Bu azmış kimi "Amerikanın səsi" və "Azadlıq" radiolarının erməni xidmətləri həbs edilərək məhkəmə qarşısına çıxarılan Qarabağdakı erməni separatçılarına informasiya dəstəyi göstərir, onların həbsi ilə bağlı erməni maraqlarına xidmət edən məlumatlar yayımlayırdılar. Bu gün artıq mövcudluqlarını itirirlər. Artıq Azərbaycana qarşı hədyanlar səsləndirə bilməyəcəklər. İllərlə qoynunda bəsləndikləri ABŞ hökumətindəki dayaqları tərəfindən susduruldular. Bu susdurulma, heç də jurnalistikanın sıradan çıxarılması deyil, gec də olsa haqqın, ədalətin bərqərar olmasıdır.

***İLHAM ƏLİYEV***


## ELAN

### "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - "ABB" ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 07.05.2025-ci il tarixində Bankın səhmdarlarının növbəti ümumi yığıncağı (bundan sonra – Ümumi Yığıncaq) keçiriləcəkdir.

Bununla yanaşı bildiririk ki, "ABB" ASC-nin Nizamnaməsinin 8.10-cu maddəsinə əsasən səsvermənin qiyabi şəkildə, Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında (invp.e-mdm.gov.az) yaradılmış şəxsi kabinet vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

**1.** "ABB" ASC-nin kənar auditor tərəfindən yoxlanılmış 2024-cü ilin maliyyə hesabatları və idarəetmə hesabatının təsdiq edilməsi;

**2.** 2024-cü ilin maliyyə nəticələrinə əsasən "ABB" ASC-nin səhmdarlarına dividendin ödənilməsi;

**3.** "ABB" ASC-nin Audit Komitəsinin müstəqil kənar üzvlərinin mükafatlandırılması

Ümumi yığıncağın keçirilməsinə dair bildiriş 22.03.2025-ci il tarixindən, gündəliyə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səvermə bülleteni isə 15.04.2025-ci il tarixindən hər bir səhmdar üçün Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında yaradılmış şəxsi kabinetində yerləşdiriləcəkdir (invp.e-mdm.gov.az).

Gündəlikdə olan məsələlərə dair münasibətinizi şəxsi kabinet vasitəsilə 15.04.2025-ci il tarixindən 07.05.2025-ci il tarixinədək elektron qaydada bildirməklə və ya bülleteni çap edərək müvafiq qaydada dolduraraq (məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərti ilə) qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 07.05.2025-ci il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, eləcə də elektron qaydada verilmiş səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

***"ABB" ASC-nin İdarə Heyəti***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# İtirdiyimiz xüsusiyyətlər: şərəf

***İnsan deyəndə şərəf, şərəf deyəndə insan xatırlanmalıdır, çünki insanlığın mayasıdır şərəf. Heç vaxt vicdanına əks getməyən, namusunu itə atmayan, adını ləkələməyən, başqasının adına qara yaxmayan, gözütox, əqidəli, qürurlu insanların daşıdığı xüsusiyyətdir şərəf. Şərəf sözü bir insanı təsvir etmək üçün işlədilə bilən ən gözəl xüsusiyyətlərdən biridir. Bu xüsusiyyət insanın ləyaqətli, dürüst, güvənli, sözündən dönməz bir insan olduğunu göstərir.***





**XXIII YAZI**

Şərəf sözü dilimizə ərəb dilindən keçib, mənası ləyaqət, etibar deməkdir. Bu xüsusiyyət insanın mənəvi dəyərlərinin böyüklüyünü, insanın edə biləcəklərinin və etməyəcəklərinin sərhədini ifadə edir. Əgər bir insanın keyfiyyətlərini ifadə edəndə ora "şərəflidir" və ya "şərəfsizdir" sözünü əlavə edirsənsə bu artıq o insanın haqqında müfəssəl məlumat vermək deməkdir. Şərəfli və ya şərəfsiz ola bilmək insanın öz əlindədir və bu bizi insan edən ən əhəmiyyətli xüsusiyyətdir.

Şərəf adını daşıyan insanlar adının mənası ilə eynilik daşıyırmı – bu, bir az mübahisəli məsələdir. Adının özəlliklərinə sahib olanlar da var, tamamilə əks xarakterdə olanlar da. Bu ad ölkəmizdə əvvəllər həm qadınlara, həm də kişilərə verilib, bu güz az rastlanan ad olsa da ötən əsrdə ən çox tələbat olan adlardan idi. Adın mənasının gözəlliyi insanların bu ada daha çox dəyər verməsi ilə nəticələnib.

Maraqlıdır, bu gün cəmiyyətdə şərəf və ya şərəfli insan anlayışları nə qədər aktualdır? Şeirlərə, romanlara mövzu olan, haqqında aforizmlər yazılan şərəf anlayışı bizim üçün nə deməkdir? Varlığı ilə yoxluğu arasındakı fərq nədir? İnsan cəmiyyətində şərəfin əhəmiyyəti, üstünlüyü, vacibliyi hansı dərəcədədir?

İnsanı insan, kişini kişi, qadını qadın edən xüsusyyətdir şərəf. Əyilməyən, əyməyən, alçalmayan, alçaltmayan özəllikdir. Şərəf insanın əxlaqını, şəxsiyyətini, mənliyini, kimliyini təmsil edən keyfiyyətlərin ümumi adıdır. İgidlik, dürüstlük kimi fəzilətlərlə yoğrulub şərəf. İnsanın dəyəri və ləyaqəti çox vaxt həmin şəxsin haqqında deyilən "şərəfli insandır" sözü ilə qiymətləndirilir.

İnsan dünyaya şərəfi ilə gəlir, yoxsa şərəf sonradan qazanılan bir xüsusiyyətdir? Maraqlı sualdır. Kiminə görə şərəf genetik dəyərdir, doğulan gündən etibarən damarlarında axan qanda olur. Kiminə görə şərəf sonradan, böyüdükcə qazanılan xüsusiyyətdir. İnsan şərəfli və ya şərəfsiz olmağı özü seçir deyirlər, bəzən də insanı yaşadığı həyat, çəkdiyi əziyyətlər şərəfsiz edə bilir deyirlər.

Şərəf sözü insanın özünə olan hörmətidir ən əvvəl. Daha sonra isə başqaları tərəfindən göstərilən



hörmətin əsaslandığı şəxsi keyfiyyət və reputasiyadır. Şərəf insanları digər canlılardan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Bu xüsusiyyəti, insanı insan edən əsas amil adlandıra bilərik. Şərəf dedikdə ağla ilk gələn anlayış insanın çəkisi, dəyəri olur. Çünki insan öz yerini bilmirsə, öz dəyərinin fərqində deyilsə, çəkisinin ağırlığını qorumursa o şərəfin nə olduğunu da bilmir deməli.

Əgər insan bu xüsusiyyətinin fərqindədirsə və öz şərəfini bu dünyada hər şeydən uca tutursa bu onun başqalarının gözündə də ucalması deməkdir. Öz şərəfini hər şeydən ali tutan insana verilən dəyər də ali olur. Şərəf insanın həm özündə, həm də başqalarında hörmət etdiyi xüsusiyyətdir. Şərəf insanı ucaldan, qoruyan, sevdirən xüsusiyyətdir.

Şərəfli biri haqqında danışanda "çox vüqarlı, qürurlu adamdır" deyirik. Şərəfli həyat, insani dəyərlərin pozulmadığı və ya pozulmasına icazə verilməyən bir həyatdır. Şərəfli yaşamaq, insanı insan edən xüsusiyyətlərlə yaşamaq deməkdir. Şərəfli həyat öz dəyərini bilmək və başqalarının dəyərlərinə hörmət edə bilməkdir. Şərəfli həyat, insanın bəşəri dəyərlərə hörmətlə yaşadığı həyatdır. Şərəfli insan nə özünü alçaltmaz, nə başqasını. Bir nəfərin də olsa şərəfinə toxunmaq bütün insanlığın ləyaqətinə, şərəfinə toxunmaq deməkdir. İnsanlığın şərəfi tapdalanırsa, onun içində özümüz də varıq.

Bəs nədir başqasının şərəfi? Nəyə toxunmaq olmaz? Kiminin ailəsi, kiminin işi, kiminin şəxsiyyəti, kiminin dəyərləri, kiminin də başqa bir qırmızı xəttidir şərəfi. Ümumilikdə ailə, milli dəyərlər, inanclar - müqəddəs bildiyimiz hər şey bizim şərəfimizdir. Əgər özümüzdə dəyər verdiyimiz nəsə varsa bu dəyərin başqasında ola biləcəyini qəbul etmək və buna uyğun davranmaq lazımdır. Yaşamaq istəmədiyimizi yaşatmaqdan qorxmalıyıq.

Şərəfli insan zəhməti ilə nail olur hər şeyə, layiqincə icra edir vəzifəsini. Şərəfi olan insan kiminsə malına, puluna, işinə, ailəsinə göz dikmir. Yalan danışmaz, yalanı sevməz onlar. Gözlərini qaçırmazlar danışanda, dik baxarlar. Qorxmadan, ürkmədən, kimdənsə razılıq gözləmədən, kiməsə hesabat vermədən yaşayır onlar. Mənfəətini hər şeydən aşağıda tutar, öz qazancı üçün insanlara, dünyaya zərər verməz.

Şərəfli insanların vicdanı dərin və utanma hissi qüvvətli olur. Vicdanları ona görə dərin olur ki, yaxşı ilə pisi, yalan ilə doğrunu, əyri ilə düzü ayırmağı bacarırlar və heç vaxt haqlını haqsıza yem eləmirlər. Utanma hisləri ona görə qüvvətli olur ki, etdikləri hər hərəkətin cavabdehidirlər və bir gün əməllərinə görə pis xatırlanmaqdan, başqalarının xatirəsində pis insan kimi qalmaqdan qorxurlar. Onlar etmədiklərindən də utanırlar, başqalarının əməllərinin insanlığa vurduğu zərərə görə utanırlar. Şərəfli insanlar bütün şərəfsizlərin yerinə utanırlar – onlarla bir cəmiyyətdə yaşadıqları üçün, bir havanı tənəffüs etdikləri üçün.

Şərəfdən, namusdan, ardan, həyadan, dürüstlükdən danışanda istehza, rişxənd edilən bir dövrə gəlib çatdıq, çox ağrılı vəziyyətdir. İnsanlar şərəfli insana dözmür, dürüst insanı sevmir, həyalı insanı özlərindən təcrid edirlər. Çünki şərəfli insan onlara öz şərəfsizliklərini xatırladır, çünki şərəfli insan onlar kimi haqq yemir, başqalarının haqqına girmir, yalan danışmır, rüşvət vermir, rüşvət almır, başqasını alçaltmır, kiminsə qarşısında alçalmır. Şərəfli insanın bir devizi var – nə olursa olsun, əyilmə!

Başların ayaq, ayaqların baş olduğu zamanda şərəfli qala bilmək də çətindir, etiraf edək. Hər şeyə rəğmən öz şərəfini hər şeydən uca tutan, vüqarlı, qürurlu, əyilməz insanlara sevgilərlə...

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
18 mart
2025-ci il

# “Qiyməti qaldırır və daha artıq qazanırlar"



***“Bildiyiniz kimi artıq Novruz bayramı yetişib və ölkədə əhali hazırlıqlara başlayıb. Ət, çərəzlər, şirniyyatlar və tərəvəzlərdə də müəyyən bahalaşma yavaş-yavaş özünü göstərir. Adətən Avropa ölkələrində bayram ərəfəsində qiymətlər ucuzlaşır. Azərbaycanda isə tam əksinə bayram ərəfəsində bayram üçün alınan məmulatların qiyməti hər zaman qalxır. Bu bütün iqtisadiyyatlarda iqtisadiyyatın quruluşundan asılı olan məsələdir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Akif Nəsirli deyib.***

Akif Nəsirli sözlərinə belə davam edib: “Azərbaycanda iqtisadiyyat inhisarçı iqtisadiyyatdır. İnhisarçı iqdisadiyyatda sahibkar həmişə dövriyyəni nəzarətdə saxlayır. Dövriyyə azalan zaman qiymətlər sabitləşir, bahalaşma bir qədər cilovlanır. Dövriyyə sürətlənir və o zaman inhisarçılar daha çox qazanmaq üçün qiymətləri qaldırmağa başlayırlar. Məsələn, onlar düşünürlər ki, 100 kq qozu 7 AZN-ə satsam, 100 AZN əlavə gəlir əldə edirəm. Qiyməti qaldırır və daha artıq qazanır.

Hər zaman çox satılan məhsulun qiyməti qalxır. Lakin rəqabətli bazarda mənzərə tamam başqadır. Burada sahibkarlar arasında amansız mübarizə gedir. Hər bir sahibkar qiyməti 1 qəpik belə qaldıran zaman yüz

## *EKSPERTDƏN İRAD*

ölçür bir biçir. Yəni, araşdırmalar, tədqiqatlar apararaq, öz rəqiblərinin satış qiymətləri ilə maraqlanaraq həll edir. Rəqabətli bazar üçün ən çətin iş qiyməti bahalaşdırmaqdır. Ona görə də sahibkarlar rəqabətli bazarda mənfəəti artırmaq üçün qiymət bahalaşmasına getmirlər.Başqa variantlar axtarırlar. Məsələn, məhsulun maya dəyərinin aşağı salınması üçün qiymətləri qaldıran vaxt keyfiyyət dəyişikliyinə gedirlər,üzərində daha əlavə məhsullar təklif edirlər və s.

Hər kəs qiyməti daha ucuz təqdim etmək istəyir ki, rəqib qarşısında öz üstünlüyünü nümayiş etdirsin. Bununla da özünə daha çox müştəri cəlb edir. İnhisarçı bazarda rəqib yoxdur. Müştəri hara getsə də yenə həmin yerdən satın alacaq. Bizdə bazarlar, mağazalar və marketlər də çoxdur. Amma onların hər birinin mərkəzləşmiş bir neçə sahibi vardır və bu sahələr inhisardadır. Buna görə də biz hara getsək də gedib müxtəlif yerlərdən olacaq şəkildə bir nəfərdən satın alırıq.O bir nəfər də hər yerdə qiyməti qaldırır. Azərbaycanda nəyin qiyməti qalxırsa, o bütün bazarlarda bahalaşır. Bu da inhisarçılığın göstəricilərindən biridir. Əsas məsələ inhisarçılıqdır və daha sonra qıtlıq gəlir. Ölkədə ərzaq məhsulları qıtdır. Buna görə də biz məcbur olaraq onu idxal edirik. İdxal yerli istehsala nisbətən daha baha başa gəlir”.

***Ayşən Vəli***

# DİQQƏT: ”ASAN xidmət” və “ASAN kommunal” bu günlərdə işləməyəcək

Novruz və Ramazan bayramları ilə əlaqədar 20, 21, 22, 23, 24 həmçinin 29, 30 və 31 martda ”ASAN xidmət” və ”ASAN kommunal” mərkəzlərində qeyri-iş günü olacaq. SİA xəbər verir ki, mərkəzlərdə 25, 26, 27, 28 martda isə iş günü olacaq. Qeyd edək ki, 1 saylı Sumqayıt “ASAN xidmət” mərkəzi zəruri təmir-bərpa işləri ilə əlaqədar aprelin 7-dək fəaliyyətini qismən məhdudlaşdırılmış formada davam etdirəcək.





## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uşağı dəfələrlə öpmək bu xəstəliyə səbəb olurmuş

***“Yeni doğulmuş uşaqları öpərkən diqqət edilməli olan bir neçə məqam var". Bu fikirləri SİA-ya açıqlamasında pediatr Qoşqar İsmayılov deyib. Həkim bildirib ki, xüsusilə, valideynlər, yaxın qohumlar uşaqları əzizləmək üçün öpürlər: "Amma bunun dərəcəsi var. Bir-iki dəfə öpmək olar. Uşağı dəfələrlə öpdükdə müxtəlif dəri xəstəliklərinə gətirib çıxarır. Misal üçün, uşağın atası üzünü qırxmayıbsa, üzü tüklü öpdüyü zaman uşağın dərisində qıcıqlanmaya gətirib çıxara bilər. Qıcıqlanma nəticəsində qızartı, hiperemiya və səpkilər yarana bilər.***



## *HƏKİM DANIŞDI*

Valideynlərdən biri, yaxud ikisi də hər hansı xəstəliyə, virusa yoluxubsa, rahatlıqla həmin virusu uşağa yoluxdurur. Digər tərəfdən körpədə diatez dediyimiz, yəni üzündə səpkilər, saçın dərisində sarı qazmaq formasında ərplər varsa, bu zaman uşaqları öpəndə yanağında olan səpkilər, qızartılar daha da artır. Çünki onlar gələcəkdə allergiyaya meyilli uşaqlar olurlar. Bunlara diqqət etmək lazımdır. Yeni doğulan körpələrin immun sistemi tam inkişaf etmədiyi üçün onlar infeksiyalara qarşı həssasdırlar. İlk üç ay ərzində körpələrin immun sistemi böyüklərlə müqayisədə daha az sayda infeksiyayla mübarizə aparan hüceyrə ehtiva edir. Bu da böyüklərdə yüngül simptomlara səbəb olan infeksiyaların körpələrdə həyati təhlükə yarada biləcəyi mənasına gəlir.

Yeni doğulmuş körpənin valideynləri qonaqları öpmə və toxunma mövzusunda xəbərdar etməkdən çəkinməməlidir. Körpənin sağlamlığını düşünən bir ziyarətçi bu cür tələblərə anlayışla yanaşmalıdır. Unutmayın ki, yeni doğulmuş körpələr infeksiyalara qarşı olduqca həssasdır. Körpəni öpmək sevgi göstəricisidir, lakin bu sevgi bəzən onların ciddi şəkildə xəstələnməsinə səbəb ola bilər”.

***Söylü Ağazadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**